www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 dekabr 2024-cü il Cümə № 236 (8609) Qiyməti 60 qəpik

**Xəbər**

## "Sədərək" və "Binə"də qiymətlər artacaq

yazısı səh.10-da

**Gündəm**

### Bakı və Ankaranın "Zəngəzur-2025" anonsu



Ermənilər niyə panikaya düşüb?

yazısı səh.6-da

### İki gün sonra Gürcüstanda nələr olacaq?

yazısı səh.9-da

### BMT hakerləri düşmən elan etdi - Azərbaycan da bunu istəyirdi

yazısı səh.10-da

### Qlobal savaş astanasında

yazısı səh.9-da

### TikTok-çu bandaların həbsi - kimlərə dərs oldu?

yazısı səh.3-də

### Bakının da marağı olduğu Suriyada hansı rejim qurulacaq?

yazısı səh.6-da

### İrəvan silahlanma yarışında artıq uduzub

yazısı səh.7-də

### Dövlət əsaslı investisiya layihələri ilə bağlı mühüm yenilik

yazısı səh.12-də

### Hindistan PUA vurmaq üçün İrəvanda zavod açır

yazısı səh.7-də

### Bu gün Xocalıya növbəti köç olacaq

yazısı səh.2-də

### "Baltalı hücum işi"ndə sensasion ifadə

yazısı səh.14-də

# "QARA QUTU"nun SİRRİ

Quşlarla toqquşma, texniki nasazlıq, hava şəraiti, yoxsa kənar təsir?



yazısı səh.5-də

# Qərbə "görməyəcəklər" mesajının şifrələri

Ekspertlər də o fikirdədir ki, müstəqil siyasət yürüdən ölkəyə qarşı "səlib yürüşü" nəticə verməyəcək

yazısı səh.4-də



### Paşinyan reytinqin dibində - seçki sonu ola bilər

yazısı səh.11-də



Bertrand Çamoulaud

### Fransa kəşfiyyatı Bakının gücünü etiraf etdi

yazısı səh.8-də



### Talıbovsuz Naxçıvanın ikinci ili

yazısı səh.3-də

# Bu gün Xocalıya növbəti köç olacaq




**Xocalı rayonunun Ballıca kəndinə ikinci köç olacaq.**

Köç dekabrın 27-də Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində baş tutacaq. Sabah Ballıca kəndinə 21 ailənin, yəni 119 nəfərin köçürülməsi nəzərdə tutulur. Keçmiş məcburi köçkünlər 32 ildən sonra ilk dəfə olaraq hər iki bayramı öz doğma torpaqlarında qeyd edəcəklər.

Böyük qayıdışla bağlı kənddə bütün infrastruktur yenidən qurulub. Kənd elektrik enerjisi, içməli su, təbii qaz və sürətli internetlə təmin olunub.

Ölkənin müxtəlif ərazilərində çətin şəraitdə müvəqqəti məskunlaşan keçmiş məcburi köçkünlər kəndə yola salınacaq.

Qeyd edək ki, Ballıca kəndi 1992-ci ildə Ermənistan ordusu tərəfindən işğal edilib. Kənd 19-20 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatı nəticəsində azad olunub.

Xatırladaq ki, artıq 27 ailə - 152 nəfər Xocalı rayonunun Ballıca kəndinə köçürülüb.



## Şavkat Mirziyoyevdən və Pezeşkiandan başsağlığı zəngi

**Dekabrın 26-da Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

Şavkat Mirziyoyev baş vermiş təyyarə qəzası ilə bağlı Azərbaycan Prezidentinə və həlak olanların yaxınlarına başsağlığını bildirib, yaralanan şəxslərin tezliklə sağalmalarını arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə minnətdarlıq edib.

İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian da dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

İran prezidenti təyyarə qəzası nəticəsində insanların həlak olması ilə bağlı Azərbaycan Prezidentinə və həlak olanların ailə üzvlərinə başsağlığını çatdırıb, yaralananların tezliklə şəfa tapmasını diləyib.

Prezident İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə minnətdarlıq bildirib.

## Azərbaycan kubokunun finalı bu stadionda keçiriləcək




**2024/25 mövsümü futbol üzrə Azərbaycan kubokunun final matçının keçiriləcəyi stadion müəyyənləşib.**

QOL.az xəbər verir ki, məlumatı Peşəkar Futbol Liqasının (PFL) prezidenti Elxan Səmədov da təsdiqləyib.

Görüşün Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda keçirilməsi nəzərdə tutulub. Matç iyunun 1-də keçiriləcək.

"Əgər fors-major vəziyyət yaranmasa, biz Azərbaycan kubokunun finalını Sumqayıtda keçirməyi nəzərdə tuturuq", - deyə PFL prezidenti Elxan Səmədov bildirib (Azerisport.com).

## Qəzada öldüyü deyilən zaqatalalı sağ tapıldı



**AZAL-ın qəzaya uğrayan təyyarəsində öldüyü güman edilən Zaqatala sakininin sağ olduğu məlum olub. Lent.az xəbər verir ki, Zaqatalanın Danaçı kənd sakini olan Mahir Carayev xəstəxanadan ailəsi ilə əlaqə yaradıb.**

O, vəziyyətinin yaxşı olduğunu dilə gətirib.

Qeyd edək ki, hadisədən dərhal sonra Mahir Carayevin həlak olduğu bildirilirdi. Ailəsi onunla heç cür əlaqə yarada bilmədiyi üçün artıq ümidini kəsmişdi. Uzun çəkən axtarışlardan sonra onun qəzadan sağ çıxdığı məlum olub.

Xatırladaq ki, qəzaya uğrayan təyyarədə Zaqataladan 10 nəfər olub.

## Rusiya ABŞ-a səfir göndərib?



**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Rusiyanın ABŞ-dakı yeni səfirinin Vaşinqtona getməsi ilə bağlı yayılan məlumatları saxta adlandırıb.**

"Unikal" xəbər verir ki, o, bu barədə TASS-a müsahibəsində bildirib.

Diplomat vurğulayıb ki, Rusiya Federasiyasının ABŞ-dakı yeni səfiri Aleksandr Darçiyev Şimali Amerika departamentinin direktoru vəzifəsini davam etdirir və Moskvada iş başındadır.

"Saxtalara inanmayın", - deyə Zaxarova ifadə edib.

Qeyd edək ki, Anatoli Antonov bu ilin oktyabrında Rusiya prezidenti Vladimir Putinin fərmanı ilə Rusiyanın Vaşinqtondakı diplomatik missiyasının rəhbəri vəzifəsindən azad edilib.



## Qəzada həlak olanlar "Cümə" məscidində anıldı

**Aktau yaxınlığında AZAL-a məxsus təyyarənin qəzaya uğraması ilə əlaqədar qəza nəticəsində həlak olanların xatirəsi dünən Azərbaycanın bütün məscidlərində, o cümlədən İçərişəhər "Cümə" məscidində də anılıb.**

Qafqaz Müsəlmanları İdarəsi Qazilər Şurasının üzvü, İçərişəhər "Cümə" məscidi dini icmasının sədri Hacı Surxay Məmmədli bildirib: "Qazaxıstanın Aktau şəhərində "Azərbaycan Hava Yollarına" məxsus təyyarənin qəzaya uğraması nəticəsində insanların faciəli şəkildə həlak olması xəbəri bizi dərindən sarsıdıb. İçərişəhər "Cümə" məscidi dini icması olaraq QMİ-i sədrinin göstərişinə əsasən İçərişəhər "Cümə" məscidində təyyarə qəzasında həlak olanların ruhlarına Quran-i-Kərimdən ayələr tilavət edildi, onların ruhlarına dualar oxundu. Dini icma olaraq bir daha xalqımıza dərin hüznlə baş sağlığı verir, qəzada yaralananlara Uca Allahdan şəfa diləyirik.

Uca Allah xalqımızı bütün bəlalardan qorusun!"

## Tütünü niyə xaricdən alırıq?



**"Azərbaycan tütünü əsasən MDB ölkələrinə ixrac edir. Yerli istehsal daxili bazarın tələbatını ödəmək üçün yetərli deyil. Ölkə daxilində yerli tütün çox az hallarda istehsala yönləndirilir. Yəni Azərbaycanda fəaliyyət göstərən siqaret istehsalçıları əslində xarici siqaret istehsal edən firmaların bir filialı kimi fəaliyyət göstərir. Həmin filiallara isə siqaret xammalını beynəlxalq şirkət hansı ölkədən istəsə, idxal edir. Çünki onlar istehsal etdikləri siqaretin keyfiyyətinə birbaşa cavabdehlik daşıyır. Ona görə də ölkə daxilindəki istehsalçılar xüsusi xammalla təmin olunur".**

Bunu Bakupost.az-a iqtisadçı ekspert Akif Nəsirli deyib.

O bidirib ki, tütünçülük sahəsində əsas problem intisarın olmasıdır: "İnhisarçılar tütünün mövcud dəyərindən aşağı qiymətə alırlar. Bu barədə fermerlər tez-tez şikayət edirlər. İnhisar çox olduğu sahədə inkişafdan söhbət gedə bilməz".

Ekspert bildirib ki, ildən-ilə tütün ixracının artmasına səbəb ölkə daxilində əkilən tütünün istehsala yönəldilməməsidir: "Ona görə də ölkədə əsasən xaricdən alınan xammal hesabına siqaret istehsal olunur, əkilən tütün isə xaricə satılır".

## Kadırov təyyarə qəzası ilə bağlı tapşırıq verdi



**Çeçenistan hakimiyyəti Qazaxıstanda sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində ölən və yaralanan respublika sakinlərinin ailələrinə maddi və digər yardımlar göndərəcək.**

"Unikal" xəbər verir ki, bu barədə jurnalistlərə respublika hökumətinin sədr müavini Xasən Hekimov açıqlayıb.

"Ramzan Axmatoviç Kadırovun tapşırığına əsasən, təyyarə qəzasında həlak olanların və yaralananların bütün ailələrinə maddi yardım və ehtiyacları olan bütün digər yardımlar göstəriləcək", - deyə o bildirib.

Həkimov deyib ki, yaxın vaxtlarda Çeçenistandan olan yaralı sərnişinlərin yerləşdiyi tibb müəssisələrinin siyahıları tərtib olunacaq və onlara lazımi köməklik göstəriləcək. Ölən çeçen sakinlərinin cəsədlərinin respublikaya daşınması imkanları da müzakirə olunur.



## Balaəli niyə məhkəməyə verilib?

**Tanınmış meyxanaçı Balaəli Rzayevin sürücülük hüququ məhdudlaşdırıla bilər.**

Meyxanaçı barədə İnzibati Xətalar Məcəlləsinin 529.3-cü maddəsi ilə inzibati protokol tərtib edilib.

Bu maddəyə görə, Balaəli yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinə görə inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarı qanuni qüvvəyə mindiyi gündən 3 ay müddətində qanunla müəyyən edilmiş əsaslar olmadan icra etməyib. İşə Sabunçu Rayon Məhkəməsində hakim Günel Məmmədovanın sədrliyi ilə baxılacaq.

Qeyd edək ki, protokol təsdiq edilərsə, meyxanaçının sürücülük hüququ 6 aydan 1 ilə qədər məhdudlaşdırılacaq.




## Daha iki tiktoker həbs edildi

**Polisin sosial şəbəkələrdə əxlaqsızlığın təbliğinə qarşı keçirdiyi əməliyyatla saxlanılan tiktoker Vüqar Zeynalzadə (Vaqa) və Nuh Məmmədov da həbs edilib.**

Əvvəllər inzibati qaydada həbs edilmiş tiktokerlər bu dəfə cinayət məsuliyyətinə cəlb ediliblər.

Nərimanov Rayon Məhkəməsinin qərarı ilə "Vaqa" və Nuh barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilib.

Qeyd edək ki, "TikTok əməliyyatı"nın istintaqı Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsində aparılır. Ötən gün aparıcı Azər Zahid barəsində də cinayət ittihamı ilə həbs qərarı verilib.

YENİ MÜSAVAT
N 236 (8609) 27 dekabr 2024

# Talıbovsuz Naxçıvanın ikinci ili

## Ali Məclis sədri vəzifəsinə təyinat hələ üç il yarım da yubana bilər-bölgədən son xəbərlər

**Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcə layihəsi Ali Məclisdə təsdiq olunub. Büdcə layihəsinə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin payız sessiyasında üçüncü oxunuşda baxılıb.**

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov muxtar respublikanın sosial-iqtisadi inkişafı və 2025-ci il büdcəsi barədə çıxış edib. Büdcə layihəsi ilə yanaşı, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il üçün xərclər smetası haqqında" qərar layihəsi də səsə qoyularaq qəbul edilib.

Yada salaq ki, 2022-ci ilin dekabr ayının 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov istefa verib. Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında Ali Məclis sədrinin seçiləcəyi gözlənilirdi. Ali Məclisin sədri vəzifəsinə təklif olunan namizəd dəstəklənmədiyi üçün Ali Məclisin sədr müavinlərinin seçilməsi məsələsi müzakirə olundu. Bəxtiyar Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini seçildi.

Niyə Talıbovun vəzifəsinə deyil, birinci müavini postuna təyinat oldu? Yeni "Naxçıvan xanı" formalaşmasından ehtiyatmı edildi?



**Naxçıvandan olan siyasi şərhçi Heydər Oğuz dedi ki, Bəxtiyar Məmmədovun Ali Məclisin sədri seçilməməsinin səbəbi var:** "Əslində Bəxtiyar Məmmədovu müavin yox, sədr seçmək istəyirdilər. Amma Naxçıvan Konstitusiyasının 29-cu maddəsinə görə muxtar respublika ərazisində 5 ildən az olmayaraq daimi yaşayan, başqa dövlətlər qarşısında öhdəliyi, ikili vətəndaşlığı olmayan ali təhsilli hər bir deputat Ali Məclisə sədr seçilə bilər. Bəxtiyar Məmmədov isə Naxçıvanda doğulsa da, son 5 il ərzində orada yaşamayıb. O, il-yarım əvvəl Naxçıvana qayıdıb və əvvəl baş nazirin müavini işləyib, sonra Ali Məclisin sədri seçilmək üçün deputatlıq mandatı alıb. Nəzərə almayıb ki, bu təyinatın reallaşması üçün o, daha 3 il yarım Naxçıvanda yaşamalıdır. Bu minvalla həmin vəzifə hələ üç il yarım vakant yer kimi öz əsl sahibini gözləyəcək".

**Heydər Oğuz Naxçıvanda "yeni xan" düzəldilməsinin mümkün olmadığı barədə fikrimizlə razılaşır. Bununla belə, o, bunun səbəbini Naxçıvanın yeni hakimiyyətinin məziyyəti ilə əlaqələndirməyin də əleyhinədir:** "Məsələ burasındadır ki, Vasif Talıbov Naxçıvanda bütün hakimiyyət orqanlarını öz əlində topladığı üçün "xan" ola bilmişdi. İndiki hakimiyyətin isə bu imkanları yoxdur. Çünki muxtar respublikanın bütün güc strukturları paytaxt tərəfindən təyin olunur".

**Müsahibimiz deyir ki, muxtar respublikada vaxtaşırı audit yoxlamaları aparan bütün rəsmi qurumların hesabatları bölgədə heç də hər şeyin yaxşılığa doğru dəyişmədiyini göstərir:** "Məsələn, Hesablama Palatası, deməli olar ki, Naxçıvanın bütün strukturlarını araşdırıb və hamısında qanunsuz xərcləmələr aşkarlayıb. Hətta Ali Məclisin xərclər smetasında nəzərdə tutulmayan istiqamətlərə 78,9 min manat artıq vəsait sərf olunub.

Ali Məclisin saxlanılması üzrə vahid büdcə təsnifatının tələbinə əməl edilməyib, ümumilikdə 32,4 min manat və satınalma keçirilmədən isə 69,3 min manat xərc edilib və sair".

Ekspert deyib ki, Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində aparılmış yoxlamalar nəticəsində müəyyən olunub ki, təhsil müəssisələrində normativlərin tələbləri gözlənilməyib, dərs saatları artırılıb, bir şagirdin bir neçə qrupda göstərilməsi və əvvəlki tədris ilində olmayan şagirdlər hesabına qrupların təşkil edilməsi nəticəsində artıq vəsaitlər ödənilib, dövlət satınalmaları keçirilməyib, müqayisələr əsasında müqavilələr üzrə qiymətlər artırılıb və nəzarət ölçü qaydasında baxış zamanı avadanlıqlarda çatışmazlıqlar aşkar edilib. İş o yerə çatıb ki, Hesablamalar Palatası bu özbaşınalıqlarda cinayət tərkibinin əlamətləri olduğunu düşünüb və müvafiq materialları Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərib.

**Heydər Oğuz Naxçıvanda səhiyyə sistemində vəziyyətin daha ağır olmasından da danışdı:** "Muxtar respublikada fəaliyyət göstərən bütün xəstəxanalara direktorlar tibbi savadı olmayan kadrlardan seçilib. Hətta Naxçıvanın Mərkəzi Doğum xəstəxanası Vasif Talıbova 14 il ombudsmanlıq etmiş bir xanımın ixtiyarına verilmişdi. Məndə olan məlumata görə, Naxçıvanın Səhiyyə Nazirliyində də ciddi yeyintilər aşkarlanıb və fakt prokurorluq orqanları tərəfindən yoxlanılır".

**Heydər Oğuz sonda bildirdi ki, Naxçıvanın bütün sahələrdə rəsmən qeydə alınan nöqsanlar barədə uzun-uzadı danışmaq olar, amma bizi yormaq istəmədiyindən o, əsasən muxtar respublikanın baş naziri Ceyhun Cəlilov haqqında bir neçə söz demək arzusundadır:** "Bilirsiniz ki, Naxçıvanın indiki baş naziri Ceyhun Cəlilov bu ilin aprel ayında həmin vəzifəyə təyin olunub. Haqqında müxtəlif təşkilatlara üzvlüyü barədə ittihamlar səsləndirilir. Mən bu məsələni dövlət orqanlarının ixtiyarına buraxıram. Geniş auditoriyaya isə yalnız bunları çatdırmaqla kifayətlənirəm: Ceyhun Cəlilov baş nazir təyin olunmamışdan əvvəl Naxçıvanın əmək və əhalinin sosial müdafiə naziri işləyirdi. Bu postda da böyük təcrübəsi yox idi. Cəmi 1 il 1 ay 10 gün idi ki, nazir olmuşdu. Özünün də 37 yaşı var. Soruşa bilərsiniz; bu gənc kadr hansı fövqəladə iş gördü ki, qısa zamanda baş nazir postuna layiq görüldü?"

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# TikTok-çu bandaların həbsi - kimlərə dərs oldu?

## Ekspertlər hesab edir ki, dövlət daha sərt tədbirlər görməli, uşaqların TikTok-a daxil olması qadağan olunmalıdır

**Tik-Tok-da əyləncə yarışları təşkil edən aparıcı Azər Zahid həbs edilib. Sosial şəbəkədə əxlaqsızlığın təbliğ edilməsi ilə bağlı saxlanılan Azərin cinayətləri ortaya çıxıb. Medianın əldə etdiyi məlumata görə, ona qarşı cinayət yolu ilə əldə edilmiş pulları leqallaşdırma, qumar oyunları təşkil etmə və başqa maddələrlə ittiham irəli sürülüb.**

Prokuror ağır cinayətlərdə təqsirləndirilən aparıcının həbsini istəyib. Təqdimata Nərimanov Rayon Məhkəməsində baxılıb. Hakim Gültəkin Əsədovanın qərarı ilə Azər Zahid barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilib. Cinayət işi üzrə həmin əməllərdə təqsirli olan Azər Zahidin köməkçisi Rövşən Təhməzov, Emin və Rəşad Abdullayev qardaşları da həbs olunublar.



Qeyd etmək yerinə düşər ki, TikTok-da bundan əvvəl də bəzi şəxslər qeyri-etik və milli dəyərlərə zidd davranışları ilə gündəmə gəlirdilər. Adətən bu şəxslər özlərini "bloger" və ya "influencer" adlandırır və populyarlıq qazanmaq üçün heç nəyə məhəl qoymadan bütün hədləri keçirdilər. Bəzən milli musiqi, adət-ənənələr və tarixi şəxsiyyətlərlə bağlı zarafat və ya qeyri-etik məzmun yaradanlar tənqidlərə səbəb oldu. Açıq-saçıq rəqslər, təhqiredici zarafatlar və ya cəmiyyətin mentalitetinə uyğun gəlməyən məzmun paylaşan şəxslər TikTok platformasında diqqət mərkəzində olublar. Bu, sosial medianın "reytinq" uğrunda sui-istifadəsi kimi qəbul edilir. Bəzi istifadəçilər isə öz uşaqlarını məzmunlarında reytinq məqsədilə qeyri-adi vəziyyətlərdə nümayiş etdiriblər. Bu da sosial media etikası baxımından yanlış addım sayılır. Qeyd edək ki, son illərdə Azərbaycanda TikTok-la bağlı etik qaydaların pozulmasına dair halların qarşısını almaq üçün hüquq-mühafizə orqanlarının nəzarəti və ictimai qınaq güclənib. Eyni zamanda bəzi şəxslərin profilləri şikayətlər əsasında bağlanıb.

Bəs görəsən, bunlardan dərs çıxaran olacaqmı? Bunun sosial şəbəkələrdə nələrə təsirləri olacaq?

**Texnobloger, Mətbuat Şurası İdarə Heyətinin üzvü Fərid Pərdəşünas hesab edir ki, problem sosial şəbəkələrdə və yayımçılarda deyil, cəmiyyətdədir:** "İnsanlar həmin yayımçıları sevir, dəstək olurlar və onlara pul xərcləyirlər. TikTok canlı yayımlarında müxtəlif insanlar - fahişələr, homoseksuallar, əqli və fiziki qüsurlu şəxslər, saxta fenomenlər, işsizlər, ustalar, iş adamları və başqaları yayım edir. İnsanlar isə özlərinə yaxın olanı, maraqlandıqlarını seçir və alqoritm həmin məzmunu ön plana çıxarır.

Hazırda saxlanılan heç bir yayımçını günahlandırmıram. Onlar cəmiyyətin ehtiyac duyduğu məzmunu təqdim ediblər. Fərdləri həbs etməklə və ya fəaliyyətlərini dayandırmaqla heç nəyi dəyişə bilmərik. Son saxlanılmaların səbəbi isə böyük ehtimalla onların qeyri-etik fəaliyyətləri ilə deyil, son dövrlərdə yayımlanan videolarda baş verən xuliqanlıq hadisələri ilə bağlıdır.

Cəmiyyəti inkişaf etdirmək istəyiriksə, yaxşı alternativlər yaratmalı, təhsilə və tərəqqiyə investisiya etməliyik. Əgər TikTok-u bağlasan, cəmiyyət "Azar"dan çıxacaq. Onu bağlasan, "OnlyFans"dan çıxacaq. Oradan qovsan, "Shorts" və "Reels" kimi platformalara üz tutacaq.

Hazırda ən böyük və ciddi problem TikTok istifadəçiləri arasında yaşını yuxarı göstərən çoxsaylı azyaşlıların olmasıdır. Övladlarımız bu videolar və mənfi nümunələrlə böyüyürlər və doğruları bu məzmundan öyrənməyə çalışırlar. Belə vəziyyətdə həm dövlətin, həm də hüquq-mühafizə orqanlarının işi çətinləşir. Senzura olmadan məzmunu necə məhdudlaşdırmaq olar? Təbii ki, mümkün deyil. Belə bir model yoxdur.

Nəticə isə aydındır: müasir gələcəyimizi və ailə tərbiyəsini artıq sosial şəbəkələr formalaşdırır. Əgər övladının tərbiyəsini sosial şəbəkələrə əmanət edirsənsə, o zaman hər şeyin pis getməsinə hazır olmalısan".

**Təhsil eksperti Kamran Əsədov isə hesab edir ki, son dövrlərdə sosial media, xüsusən TikTok, həm böyüklər, həm də şagirdlər arasında böyük populyarlıq qazanıb:** "Təəssüflə qeyd etməliyik ki, bu platforma bəzən milli-mənəvi dəyərlərə zidd davranışların yayılmasına səbəb olur. Daxili İşlər Nazirliyinin bu məsələdə qanunauyğun addımlar atması təqdirəlayiqdir. Bununla belə, xüsusi diqqət tələb edən digər bir məsələ şagirdlərimizin bu platformalardan mütəmadi olaraq zərər görməsidir. TikTok və digər sosial media platformaları təhsil və tərbiyəyə mənfi təsir edir, şagirdlərimizin vaxtını və enerjisini məhv edir. Təklifim odur ki, məktəblərdə sosial media istifadəsi ilə bağlı tənzimləyici qaydaların hazırlansın. Şagirdlərə rəqəmsal savadlılıq tədris edilsin və zərərli məzmunların təsirlərindən qorunmaq üçün maarifləndirmə işləri gücləndirilsin. TikTok kimi platformaların məktəb yaşlı uşaqlar üçün məhdudlaşdırılması ilə bağlı konkret addımlar atılsın".

**Sosioloq Elçin Bayramlıya görə isə TikTok-da narkomaniya, zorakılıq, insan alveri və digər qeyri-qanuni əməllər açıq şəkildə həyata keçirilirdi:** "Nəhayət, dövlət orqanları əxlaqsızlığı təbliğ edən şəxslərlə bağlı qərar verdi. Bundan sonra da bu kimi neqativ halların qarşısını almaq üçün ciddi tədbirlər görülməli və sosial şəbəkələrin tənzimlənməsi üçün yeni qanunlar qəbul edilməlidir. Dövlət sosial şəbəkələrlə bağlı xüsusi bir qurum yaratmalı və ciddi nəzarət mexanizmi tətbiq etməlidir. Hətta sosial şəbəkə polisi yaradılmalı, bütün platformalar nəzarətdə saxlanmalıdır".

Onu da qeyd edək ki, TikTok təhlükəsizlik, məxfilik və ya digər problemlərlə bağlı bir neçə ölkədə qadağan edilib və ya məhdudlaşdırılıb.

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 236 (8609) 27 dekabr 2024

**"Bu gün dünyada gedən proseslər göz qabağındadır. Qanlı toqquşmalar, müharibələr, münaqişələr, bəzi ölkələrin digər ölkələrin işlərinə kobudcasına qarışması, vəziyyətin gərginləşməsi - bütün bunları biz Azərbaycanda görmürük və görməyəcəyik. Çünki xalq-iqtidar birliyi, cəmiyyətdəki həmrəylik, vahid siyasi baxışlarımız, təbii ki, bizim tarixi Zəfərimiz və bir çox digər amillər bizi bu çətinliklərdən, çağırışlardan sığortalayır.**

# Qərbə "görməyəcəklər" mesajının şifrələri

## Ekspertlər də o fikirdədir ki, imperialist güclərin müstəqil siyasət yürüdən ölkəyə qarşı apardıqları "səlib yürüşü" heç bir nəticə verməyəcək

Artıq 30 ilə yaxındır ki, Azərbaycan sabitlik şəraitində yaşayır və əminəm ki, bundan sonra əbədi sabitlik şəraitində yaşayacaq". Bu sözləri Prezident İlham Əliyev 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı bildirib.

Qeyd edək ki, Prezident son aylar bir neçə dəfə Qərbin Cənubi Qafqaz respublikalarının işinə müdaxilə siyasətini pisləyib. Noyabrda COP29-dakı çıxışında isə bu barədə daha konkret danışmışdı.

"Əgər Avropanın əsas diplomatı Cozep Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəlliyiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın", - deyə Prezident bildirib.

Prezident hansı qüvvələrə mesaj göndərir? Qərb 2025-də Cənubi Qafqazdan çəkiləcək, yoxsa...

**YAP-çı deputat Aydın Mirzəzadə Azərbaycanın bütün bu təzyiqlərə qarşı göstərdiyi dirənişin və atdığı addımların daim bəhrə verdiyini bildirdi:** "Yeni yaranan müstəqil dövlətlərin ilk dövrləri olduqca çətin keçir. Onun daxili işlərinə qarışmaq, yerinə qərar vermək həvəsində olan xarici dairələrin sayı kifayət qədər çox olur. Ən əsası, onlar ölkədaxili işlərə qarışmağı demokratiya, insan hüquqları, mətbuat azadlığı şüarları ilə pərdələməyə çalışırlar. Bunun arxasında isə həmin ölkənin əsl müstəqilliyini əlindən almaq, onun qərar qəbul etmə hüququnu xaricdə həll etmək məqsədi dayanır. Bu həm də həmin ölkənin təbii sərvətlərindən əldə olunan gəlirləri xaricə yönəltmək məqsədinə xidmət edir. Həmçinin təsir altına alınan dövlətləri xaricdə müəyyən dairələr qonşu dövlətlərə platsdarm kimi də istifadə etməyə çalışırlar. Bütün bu cəhdlər Azərbaycan üçün kifayət qədər real olub. 90-cı illərdə Azərbaycana artıq keçmiş olan ağır Dağlıq Qarabağ probleminin daxildə yaradılması, ölkə daxilində "5-ci kolon"un formalaşdırılması və ona xaricdən dəstək verilməsi yaxın tariximizin mühüm səhifələrindən biridir. Digər tərəfdən, demokratiya pərdəsi altında gizlənərək Azərbaycanda xaricdən asılı olan siyasi təşkilatların və qeyri-hökumət təşkilatlarının formalaşmasına çalışdılar. Azərbaycan dövləti bunun qarşısını almaq üçün çox ciddi addımlar atdı. İnkişaf etmiş demokratik ölkələrin təcrübəsindən yararlanaraq, Azərbaycan siyasi təşkilatlarda QHT-lərin xaricdən maliyyələşməsinin qarşısını birmənalı şəkildə aldı. Azərbaycana növbəti hücum isə daxildə xaricə bağlı olan mətbuat orqanlarının yaradılması cəhdləri ilə müşahidə olundu. Bu istiqamətdə də Azərbaycanın atdığı addımlar öz nəticəsini verdi və xarici dairələr Azərbaycanın daxili işlərinə qarışmağın mümkün olmadığını gördülər. Bununla yanaşı, bəzi beynəlxalq təşkilatlar Azərbaycan əleyhinə müxtəlif qətnamələrin qəbul edilməsinə çalışırlar. Ancaq bunların nəticəsi yoxdur. Azərbaycan öz dövlət müstəqilliyini qorumaq əzmindədir. Azərbaycan cəmiyyəti bu gün Azərbaycanın müstəqilliyini, ölkənin öz məsələlərini müstəqil şəkildə həll etmək prinsipini hər şeydən üstün tutur. Cənab Prezidentimizin həyata keçirdiyi siyasət bu gün Azərbaycanın milli maraqlarına tam cavab verir. Onun bu ilin fevralında keçirilmiş növbədənkənar Prezident seçkisində mütləq səslə qalib gəlməsi onun siyasi kursunun cəmiyyətdə dəstək qazandığının bariz nümunəsi oldu. Cənab Prezidentimizin həmçinin vaxtaşırı beynəlxalq informasiya vasitələrinə verdiyi müsahibələrdə Azərbaycanın müstəqillik ideyası qəti şəkildə qorunur. Xarici dairələr Azərbaycan liderinin xalqın dəstəyinə söykənərək dövlətinin maraqlarını qoruduğunun fərqindədilər. Hesab edirəm ki, Azərbaycanın bu siyasi kursu, bu qətiyyəti dünya üçün bir nümunədir. Dünyanın müxtəlif regionlarında müxtəlif dövlətlərin daxili işlərinə qarışmaq cəhdləri kifayət qədər böyükdür. Azərbaycan nümunəsi göstərir ki, hətta öz cəmiyyətinə, milli ideologiyasına söykənərək, beynəlxalq hüquqi əsas götürən kiçik dövlətlər belə öz müstəqilliklərini qoruya bilərlər".

"Bu gün dünya düzənində baş verən proseslər acı bir reallığı ortaya qoyub. Söhbət Qərbin imperialist güclərinin müstəqil siyasət yürüdən ölkələrə qarşı belə deyək ki, apardıqları "səlib yürüşü"ndən gedir".

Bu fikirləri "Yeni Müsavat"a açıqlamasında **millət vəkili Vüqar İskəndərov** deyib. Onun sözlərinə görə, Azərbaycan da həmin qüvvələrin hədəfindədir: "Çünki ölkəmiz də müstəqil siyasət həyata keçirir. Azərbaycan imperialist güclərin qaranlıq istəklərinə qarşı əzmkarlıq göstərir. Bu isə həmin qüvvələri daha da azğınlaşdırır. Bu qara, imperialist qüvvələrin arzuları gözlərində qalacaq. Cənab Prezidentin də bəyan etdiyi kimi, həmin qüvvələr öz məqsədlərinə çatmayacaq. Çünki xalq-iqtidar birliyi, cəmiyyətdəki həmrəylik, vahid siyasi baxışlarımız, təbii ki, bizim tarixi Zəfərimiz və bir çox digər amillər bizi bu çətinliklərdən, çağırışlardan sığortalayır. Artıq 30 ilə yaxındır ki, dövlət başçısının da bəyan etdiyi kimi, Azərbaycan sabitlik şəraitində yaşayır və əminəm ki, bundan sonra da əbədi sabitlik şəraitində yaşayacaq".

**Siyasi təhlilçi Sona Əliyeva son 21 ildəki Azərbaycan siyasətinin zirvə nöqtəsindən söz açdı:** "Prezident İlham Əliyev hazırda çoxqütblü dünyanın konfiqurasiyasına uyğun çoxgedişli oyun qurucusu kimi dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Təbii ki, Qərbdəki və digər qütblərdəki müəyyən dairələr Azərbaycanın bu uğurlarını həzm edə bilmirlər. Ona görə də ölkəmizə qarşı çirkin kampaniyalara başlayıblar. ABŞ-ın Bayden administrasiyası, Fransa və Avropa İttifaqının "Soros"çu alətləri ölkəmizə və onun başçısına qarşı hücumları, təzyiqləri artırıblar. Azərbaycan indi güclü dövlətdir və Bakı Cənubi Qafqazı da əbədi sülh yolu ilə aparmaq üçün əlindən gələni edir. İmperialist qüvvələr isə buna qarşıdır. Çünki Əliyevin kapitanlığındakı ölkəmiz həmin qütblərin və dairələrin planlarını pozur. Bakı Ankara ilə birgə dünya nizamına yeni çətirlə - Türk Birliyi ilə gəlir. Qərb isə bunu qəfiyyətlə istəmədiyini açıq formada ifadə edir. Qərb koalisiyası Güney Qafqazda möhkəmlənmək üçün onun açarına - Azərbaycana sahib olmaq istəyir. Bakı isə ənənəvi balanslı siyasət kursuna sadiqdir. Qərb Gürcüstandakı məğlubiyyətini həzm edə bilmir və bu yenilgini kilid nöqtəsinə - Bakıya sahiblənməklə əldə etməyi düşünür. Ancaq Avropada və Amerikada bir nüansı unudurlar ki, Azərbaycan 100 il öncəki Odlar Yurdu deyil.

Bu gedişlə 2025-ci ildə Qərb Bakıya qarşı yeni həmlələr edəcək. Onun nüfuzunu sarsıtmağa çalışacaq. Bu güc mövcud olduqca iradəmizi sarsıtmaq mümkün olmayacaq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



### Gürcüstanı xaricdən qarışdırırlar

**"Gürcüstanda hazırda baş verən proseslər xaricdən idarə olunur".**

Bunu ölkə parlamentinin sədri Şalva Papuaşvili deyib.

Onun sözlərinə görə, Gürcüstan parlamentinin qarşısında olan xarici siyasətçilər birbaşa olaraq Salome Zurabişvili və radikal müxalifəti "Maydan" ssenarisinə keçməyə çağırırdılar: "Lakin onlar bir faktı - gürcü cəmiyyətini və onun ölkəyə, həmçinin Gürcüstanda qeyri-sabitlik yaratmağa cəhd edənlərə qarşı münasibətini nəzərə almadılar. Buna görə də bizim daxili və xarici düşmənlərimiz gürcü cəmiyyəti qarşısında hər dəfə məğlub olublar, bu dəfə də belə olacaq".

Spiker qeyd edib ki, Zurabişvili və radikal müxalifət danışır, Gürcüstanın karvanı isə irəli gedir.

Ş.Papuaşvili prezidentin parlamenti buraxa bilməsi fikirlərinə də münasibət bildirib. O, bu cür fikirləri cəfəng adlandırıb: "O, Tiflisdə dünya çempionatını da eyni müvəffəqiyyətlə təyin edə bilər. Bununla bağlı istənilən sənəd heç bir hüquqi qüvvəyə malik olmayacaq".

### ABŞ Zelenskini müharibəyə daha əvvəldən hazırlayıb?

**"ABŞ prezidenti Co Bayden və dövlət katibi Entoni Blinken 2020-ci ilin payızından Ukrayna prezidenti Vladimir Zelenskini Rusiya ilə münaqişəyə hazırlayıb". Teleqraf.com yerli mətbuata istinadən xəbər verir ki, bu barədə Ali Radanın deputatı Aleksandr Dubinski özünün Teleqram kanalında paylaşım edib.**

Onun sözlərinə görə, Zelenskiyə sonsuz güc verən Dövlət Departamentinin rəhbəri və Amerika lideri olub. Vətənə xəyanətdə şübhəli bilinərək həbsdə olan siyasətçi qeyd edib ki, hazırda prezident Zelenskini tutduğu vəzifədən uzaqlaşdırmağın heç bir qanuni yolu yoxdur. Onun sözlərinə görə, hazırkı lider güc strukturlarının köməyi ilə hakimiyyəti qəsb edib.

"Ukrayna lideri Vladimir Zelenski Qərb tərəfdaşlarına maliyyə və hərbi yardım üçün yalvarır". Bu barədə isə irlandiyalı jurnalist Cey Boues X sosial şəbəkəsində yazıb.

"Zelenski bu yolla Qərbdə olan müttəfiqlərindən milyonlarla dollar oğurlayıb" - jurnalist deyib. Cey Boues öz paylaşımına Zelenskinin müxtəlif çıxışlarından silah, döyüş sursatı, döyüş təyyarələri və pul istədiyi kadrları əlavə edib.

# “Qara qutu”nun sirri



## Quşlarla toqquşma, texniki nasazlıq, hava şəraiti, yoxsa kənar təsir?

**Bakı-Qrozni reysini yerinə yetirən “Embraer 190” tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insanın həlak olması ilə əlaqədar dekabrın 26-da Azərbaycanda matəm elan edilib. Bu səbəbdən bayraq yarıya qədər endirilib.**

Sonuncu dəfə Azərbaycanda matəm 6 dekabr 2015-ci il tarixində olub. O zaman ölkə səviyyəsində matəm elan edilməsinə səbəb 2015-ci ilin 4 dekabr tarixində “Günəşli” neft yatağının 10 saylı dərin dəniz özülündə güclü qasırğanın doğurduğu qəza nəticəsində çoxsaylı insan tələfatı olub. Həmin hadisə nəticəsində 63 nəfər zərər çəkib ki, onlardan da 16-sı dünyasını dəyişib, 17-si itkin düşüb. Bu hadisə ilə əlaqədar olaraq Azərbaycan Respublikası Prezident İlham Əliyevin qərarı ilə Azərbaycanda 6 dekabr tarixi matəm günü elan olunub (mənbə: Modern.az)

### Bakıdakı şadlıq saraylarında toylar dayandırılıb

Matəm günü ilə bağlı şadlıq saraylarında əvvəlcədən planlaşdırılan toy və digər mərasimlər ləğv edilib. Şadlıq saraylarının bəzilərində bu gün əvvəlcədən toy planlaşdırılmayıb, əksəriyyətində isə toylar dayandırılıb.

### AZAL-ın prezidenti: “Təyyarə oktyabr ayında...”

**“Qara qutu tapılıb. Qara qutunun oxunması isə bağlı qanunvericiliyə uyğun proseslə hərəkət ediləcək”. AZAL-ın prezidenti Samir Rzayev belə deyib. AZAL-ın prezidenti daha sonra deyib**: “Təəssüf ki, qəza zamanı iki təcrübəli pilotumuz və bir bələdçimiz həyatlarını itirdilər. Onların bu qəhrəmanlığı heç vaxt unudulmayacaq. Qəzanın "qara qutu"su artıq tapılıb və onun təhlili üçün beynəlxalq aviasiya konvensiyalarına uyğun prosedurlar həyata keçirilir. Təyyarə oktyabr ayında tam təmirdən çıxıb, texniki baxışdan keçib və uçuşları 15 min saatdan çox olan təcrübəli pilotlar tərəfindən idarə edilirdi. Buna baxmayaraq, hadisənin səbəbləri araşdırılır".

### “Embraer” təyyarəsini istehsal edən şirkətdən açıqlama

Qəzaya düşən “Azərbaycan Hava Yolları”na məxsus “Embraer 190" təyyarəsi ilə bağlı Azərbaycan, Qazaxıstan və Braziliya nümayəndələri birlikdə araşdırma aparır. TASS xəbər verir ki, bu barədə Qazaxıstan Nəqliyyat Nazirliyi məlumat yayıb.

Braziliyanın “Embraer” təyyarə istehsalı konsorsiumu Aktaudakı təyyarə qəzasından sonra rəsmi açıqlama verib.

Şirkət təyyarənin göyərtəsində uçuşlara mane olacaq heç bir qüsur aşkar edilmədiyini, hətta bunu “Azərbaycan Hava Yolları” QSC-nin rəhbərliyinin də təsdiqlədiyini bəyan edib. AZAL-ın məlumatında isə deyilir ki, hava gəmisinin ümumi eniş sayı 9949, ümumi uçuş müddəti isə 15257,22 saat təşkil edir. Təyyarənin son tam texniki yoxlanışı 2024-cü il oktyabrın 18-də aparılıb. Son yoxlamadan sonra 671 uçuş saatı keçib.

Qeyd edək ki, “Embraer E190 AR” model təyyarələr 2004-cü ildən istehsal olunur. Konfiqurasiyasından asılı olaraq, 100-124 sərnişin daşıya bilir. İki General Electric CF34 -10E mürəkki ilə təchiz olunub, maksimal uçuş məsafəsi 5000 km-dir. Maksimal uçuş çəkisi 51,8 tondur.

### Sağ qalanlar və yaralılar Bakıya gətirildi, həlak olanlar isə...

Yenilənmiş məlumatlara görə, ölənlərin 38-i tapılaraq məhkəmə-tibbi ekspertiza mərkəzinə aparılıb, onlardan 3-ü ekipaj üzvüdür. 7 nəfərin meyitinin şəxsiyyəti müəyyən edilib. Təyyarə qəzasında həlak olan Azərbaycan vətəndaşlarının hamısının ailələrinə məlumat verilib. İdentifikasiya işləri tamamlandıqdan sonra həlak olan şəxslərin cənazələri Bakıya gətiriləcək və aidiyyəti üzrə təhvil veriləcək. Həyatını itirən şəxslərin cənazəsi iki gün ərzində gətiriləcək. Həlak olan sərnişinlərin yaşadıqları ərazidə dəfn ediləcəkləri bildirilir.

Təyyarənin sağ qalan sərnişinlərindən 12 nəfər isə dekabrın 26-da axşam ölkəyə gətirilib.

Vəziyyəti qənaətbəxş olan 7 nəfər adi reys, vəziyyəti orta ağır qiymətləndirilən 5 sərnişin isə ayrılmış həkim briqadasının müşayiəti altında Fövqəladə Hallar Nazirliyinin xüsusi təyyarəsi ilə gətirilib.

### Partiyalar bəyanat yaydı

Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar AZAL-ın Bakı-Qrozni reysini yerinə yetirən “Embraer 190” tipli sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar bəyanat yayıblar.

Bəyanatı imzalayan siyasi partiyalar xalqın və dövlətin yanında olduqlarını bəyan edib, bəzilərinin bu bədbəxt hadisəni siyasi spekulyasiya predmetinə çevirmək cəhdini qınayıb, vətəndaşlarımızı və bütün dünya azərbaycanlılarını həmrəyliyə çağırıb.

### Qəzada həlak olanların ailələrinə kompensasiya veriləcək?

Qəzada həyatını itirənlərin ailələrinə kompensasiya ödəniləcəkmi? Kompensasiyanı kimlər ala biləcək? Vəkillər Kollegiyasının üzvü, “Mirzayev and Partners Law Firm” hüquq şirkətinin rəhbəri Şaiq Mirzəyev Modern.az-a deyib ki, kompensasiyanın ödənilməsi üçün əvvəlcə həyatını itirən şəxslərin kimliyi dəqiqləşməlidir: “Bundan sonra onların qohumları müəyyən olunur. Vəfat edən şəxslərin birinci dərəcəli qohumları (ana, ata, bacı, qardaş, həyat yoldaşı, övlad) müraciət edərək zərərçəkmiş şəxs qismində tanınırlar. Qanunda qohumluq dərəcələri dəqiqliklə müəyyən olunub”.

### “Hər şey yaxşı olacaq” deyən stüardessa Gəncədə dəfn olunacaq

Həyatını itirən şəxslər içərisində “Hər şey yaxşı olacaq” deyən stüardessa - Hökümə Əliyeva 1991-ci ildə Kəlbəcər rayonunun Susuzluq kəndində anadan olub. 1993-cü ildə kəndin işğalı səbəbi ilə məcburi köçkün kimi Bərdə rayonun Qaradəmirçi kəndində müvəqqəti məskunlaşıblar. Hökümə Gəncə şəhər V.Veysəlov adına 30 nömrəli tam orta məktəbi bitirəndən sonra 612 bal toplayaraq Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub. Daha sonra təhsilini magistr və doktorantura pillələrini də tamamladı. 2016-cı ildən hava yollarında əvvəlcə tərcüməçi kimi işə başlayıb, daha sonra stüardessa kimi fəaliyyət göstərib. Hökümə Əliyeva ailəsinin yaşadığı Gəncə şəhərində dəfn olunacaq.

### Konspiroloji nəzəriyyələr, Peskovun cavabı

Rusiya mediası təyyarəsinin qəzası haqda müxtəlif versiyalar haqda yazır. “Moskovski komsomolets” qəzeti təyyarənin gövdəsindəki kiçik deşikləri əks etdirən videodan bəhs edərək bildirir ki, bu zədələrin ölçüsü yunan qozu ilə müqayisə edilə biləcək ölçüdədir. “Mütəxəssislər qeyd edirlər ki, belə xəsarət mərmilərin təsirinin izləri ola bilər. Federal Hava Nəqliyyatı Agentliyinin ilkin məlumatlarına görə, insident təyyarənin quşlarla toqquşmasından sonra baş verib”, - qəzet yazır.

Bununla belə, “MK” söhbəti Ukraynanın üzərinə yönəldir və qeyd edir ki, bu ölkənin pilotsuz təyyarələrinin Çeçenistandakı hədəflərə hücumları fonunda Bakı-Qrozni reysinin marşrutunu dəyişməsi faktını nəzərdən qaçırmaq olmaz: “İnsidentlə bağlı versiyalardan biri təyyarənin silah və ya pilotsuz uçan aparat tərəfindən zədələnmiş ola biləcəyidir”.

Kremlin mətbuat katibi Dmitri Peskov isə jurnalistlərin suallarını cavablandıran zaman bildirib ki, istintaqın yekunlarına qədər Aktau yaxınlığında təyyarə qəzasının səbəbləri ilə bağlı hər hansı fərziyyə irəli sürmək düzgün olmaz.

Peskov qəza ilə bağlı istintaqın sonuna qədər gözləməyi tövsiyə edib.

### “Təyyarə quş dəstəsi ilə toqquşa bilməzdi” - Ornitoloji Cəmiyyətin sədri

**Azərbaycan Ornitoloji Cəmiyyətinin (AOC) sədri Elçin Sultanov Modern.az-a deyib ki, quşların köçü çoxdan bitib, hazırda quşlar qışlama dövründədirlər:** “Tək-tük quşlar qışda köç üçün Cənuba uça bilər, amma bizim bölgədən Dağıstan, Çeçenistana, nə də həmin ərazilərdən Azərbaycana quşların köçü olmur. Quşlar kollektiv olaraq bizim bölgəmizdən İrana, İrandan bizə, İraqa və yaxud da Azərbaycanın içində hərəkət edirlər. Böyük köç isə çoxdan bitib və bir də fevralın ortalarında başlayacaq”.

Elçin Sultanov onu da qeyd edib ki, quşlar maksimum 8000 metrə qədər hündürlükdə uça bilirlər ki, bu da bəzi hallarda təyyarələrin hərəkətinə maneçilik törədə bilər.

❑ **“Yeni Müsavat”**

Yeni MÜSAVAT
N 236 (8609) 27 dekabr 2024

# Bakı və Ankaranın "Zəngəzur-2025" anonsu - ermənilər panikada

## İki ölkə arasında dəhlizlə bağlı müzakirələrin sürətlənməsi İrəvanı təlaşlandırıb; "Ermənistan kimdir ki, Çin və Böyük Britaniyanın marağında olan proyektə imkan verməsin?" - rəy

**Türkiyə Azərbaycanla Zəngəzur dəhlizi ilə bağlı müzakirələri davam etdirir. Bu sözləri Türkiyənin nəqliyyat və infrastruktur naziri Əbdülkadir Uraloğlu Ankarada "Türk əsrində nəqliyyat dəhlizləri və tranzit daşımalar" konfransında deyib. O əlavə edib ki, Türkiyə Orta dəhlizin səmərəliliyini artırmaq üçün hər cür səy göstərir. Nazirin məlumatına görə, bu istiqamətdə perspektivli layihələrdən biri Zəngəzur dəhlizidir.**

Uraloğlu bildirib ki, Zəngəzur dəhlizi alternativ marşrut və tutum təmin edəcək. "Hazırkı Bakı-Tiflis-Qars dəmir yolu əlaqəmiz müəyyən gücə malikdir. Bakı-Tiflis-Qars xətti həm də Gürcüstan üzərindən Qara dəniz limanlarına əlaqəni təmin edən bir xətdir. Lakin yük birbaşa gedə bilər. Biz ondan çıxış edirik ki, alternativ olmalıdır: Qarsdan başlayıb İğdır-Dilucaya, oradan da Naxçıvana gedən bir xətt var. Bu, Ermənistandan keçməklə 43 kilometr, İrandan keçməklə isə 61 kilometr təşkil edir. Daha sonra xətt Azərbaycandan Xəzər dənizi vasitəsilə Uzaq Şərqə keçir. Yaxın aylarda bu layihə üzərində işlərə başlanacaq. Naxçıvanda mövcud dəmir yolu xətti var, təmir olunacaq. Bu xətt alternativ marşrut yaratmaqla əlavə ötürmə təmin edəcək", - deyə Uraloğlu bildirib.

Çox qəribədir ki, Azərbaycan və Türkiyə ilə sülh müqavilələri imzalamaqda, kommunikasiyaların açılmasında hamıdan çox Ermənistan maraqlı olmalı halda, faktiki yeni müharibəni yaxınlaşdırmaqla məşğuldur. Təbii ki, Bakı və Ankara İrəvanın pozucu hərəkətlərini diqqətlə izləyir, müvafiq ön tədbirlər görür. Bəzi erməni ekspertlər hesab edirlər ki, Bakı və Ankaranın Zəngəzur üzərində nəzarəti Qərbin planlarına uyğundur, çünki bununla İran təcrid olunacaq. Erməni mənbələr iddia edir ki, Türkiyənin hesablamalarına görə, Qarsı Naxçıvanla birləşdirən dəmir yolunun tikintisi 2029-cu ildə başa çatacaq. O vaxta qədər Türkiyə Ermənistana təzyiq vasitələrini əlində saxlamağa çalışacaq. Münasibətlər 100 faiz həll olunmayacaq, amma Türkiyə bundan istifadə edərək ekstraterritorial dəhliz Zəngəzur əldə etmək üçün Ermənistana təzyiq göstərməkdə mühüm addımlar atacaq.

Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədlinin "Yeni Müsavat"a bildirdiyinə görə, Zəngəzur dəhlizi Orta dəhlizin bir hissəsidir. Onun fikrincə, bu logistikaya ayrıca baxmaq olmaz. Orta dəhlizin qlobal marşrut olduğunu deyən partiya funksionerinin sözlərinə görə, Ermənistanın Zəngəzur koridoru ilə bu layihəyə əngəl ola biləcəyini nonsens sayır: "Ermənistan kimdir ki, Çin və Böyük Britaniyanın marağında olan proyektə imkan verməsin? Sadəcə, dünyan dəhlizə nəzarət məsələsidir. Britaniya, ABŞ, Fransa Çinə gedən bu xəttin Rusiya və İrandan yan keçməklə açılmasının tərəfdarıdır. Hətta Blinkenin köməkçisi Obrayen də Qərbin bu niyyətini gizlətməmişdi. Ermənistana da diqtə edən Qərb mərkəzləri deyirlər ki, Rusiyanı kənarda saxlamaqla Azərbaycanla yolları aç. Zəngəzur dəhlizi ilə bağlı mürəkkəblik bundan ibarətdir".

**S.Əsədli Rusiyanın öz arqumentləri olduğunu görür**: "Moskva 10 noyabr sənədini baza hesab edir. O sənədin də 9-cu bəndində dəhliz təhlükəsizliyinə kontrol Rusiya Federal Xidmətində olmalıdır. Ermənistan bu məsələdə vaxt uzadır ki, Qərbdən gələn sifarişi yerinə yetirsin, nəzarət ruslara keçməsin. İnsafən, indiyədək atılan bütün addımlar məhz üçtərəfli sazişin bazası




üzərində olub. Rusiya bildirir ki, Brüssel və Vaşinqton da 10 noyabr razılaşmasından kənara çıxan hansısa proqram irəli sürməyib. Ona görə tələb edir ki, yolu götürsün. Burada digər problem dəhliz statusudur. Azərbaycanla anlaşaraq dəhliz mahiyyəti daşımadan da Naxçıvana quru yol təmin edilə bilər, intəhası, erməni gömrüyü olmadan, yeni ruslar yoxlayır və maneəsiz gediş olur".

**Rusiyanın layihədən kənarda saxlanmasının çətin olacağını bildirən VHP rəsmisi hesab edir ki, Ermənistan 2025-ci ildə ciddi təzyiqlər görəcək:** "Cənubi Qafqazda Rusiya möhkəmlənir. Paşinyan da dərs çıxarmağa başlayır. Fransa və digər ölkələrin dəstəyi ilə bölgədə sürüşkən manevrlər etmək onun büdrəməsinə səbəb ola bilər. Əgər siyasi həqiqətləri görə bilirsə, Zəngəzur dəhlizi ilə bağlı addımlar atmalıdır, prosesi uzada bilməyəcək. Təbii ki, Qərb Rusiyanı sanksiya altında saxladığına görə dəhlizi ona vermək istəməz. Lakin regionun güclü dövləti ilə hesablaşmalı olacaqlar. İrana gəldikdə, məncə, Azərbaycan və Türkiyə bu məsələdə Tehranı başa sala bilir. Hər nə qədər Qərbin məramı Rusiya və İranı layihədən izqoy vəziyyətə salmaq olsa da, Azərbaycan və Türkiyə 3+3 formatının inkişafında maraqlıdır".

**S.Əsədlinin qənaətinə görə, bölgədə dəhlizlər, yollar uğrunda geopolitik mübarizə sərtləşəcək:** "Gələn il daha amansız rəqabətin şahidi ola bilərik. Azərbaycan bu məsələdə Naxçıvana yolunun təmin olunmasını tələb edir. Bizim başqa bir məqsədimiz yoxdur".

"Türkiyə Zəngəzur dəhlizinə sahiblənmək istəyir. Lazım olsa onu güc yolu ilə də ələ keçirəcək". Erməni politoloq Benyamin Matevosyan deyib. Onun sözlərinə görə, Ermənistan bunu məqsədli edir. "İrəvan hökuməti prosesi məqsədli şəkildə reallaşdırır ki, zəmin yaratsın. Yəni Türkiyənin Zəngəzuru götürməsini reallaşdırsın. Burada İrəvanın hədəfi yeni yola sahiblənmək və Rusiyadan asılılığını azaltmaqdırsa, Türkiyənin də hədəfi İranla sərhədi bağlamaqdır". Ermənistanın keçmiş XİN başçısı Vardan Oskanyan isə deyib ki, dəhliz siyahıdadır, sadəcə, Əliyev bu barədə danışmağa ehtiyac duymur: "Çünki bunu özü üçün həll etmiş sayır. Zəngəzur dəhlizi Azərbaycan üçün ən əlçatandır. Paşinyan bunu Bakıya vəd edib ki, rahatlıqla girib dəhlizi götürə bilərlər".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Bakının da marağı olduğu Suriyada hansı rejim qurulacaq?

## Əl-Colani Yaxın Şərqdəki avtoritar hökmdarların taleyindən yayına biləcəkmi, bunu zaman göstərəcək

**Yaxın Şərq üzrə gürcü siyasi ekspert, iranşünas Vasili Papava Ayna.az-a müsahibəsində bölgədə baş verən son hadisələri şərh edib. "Suriyada Əsəd ailəsinin diktatura rejiminin devrilməsi ölkənin gələcəyi məsələsini gündəmə gətirib. "Həyat Təhrir əl-Şam" lideri Əbu Məhəmməd əl-Colani bütün cəmiyyəti və Suriyanı birləşdirəcəyinə söz verib, lakin onun bu məqsədinə nail olub-olmayacağı bəlli deyil", - deyə ekspert bildirib.**



Ekspert hesab edir ki, hətta "Həyat Təhrir əl-Şam" yaraqlılarının Bəşər Əsədin hökumət ordusunun mövqelərinə qarşı genişmiqyaslı hücumunun başlanğıcı zamanı əl-Colani Suriyanın müxtəlif etnik-dini qruplarını birliyə və qarşılıqlı hörmətə çağırıb: "Bununla belə, unutmaq olmaz ki, Suriyada dövlətin müharibədən sonrakı inkişafı üçün müxtəlif məqsəd və planlarla fəaliyyət göstərən çoxsaylı silahlı qruplaşmalar var. Müxtəlif islamçı qruplardan ibarət yeni Suriya hökuməti həm yeni Suriyanın islamçı modelini paylaşmayan dünyəvi rejimin tərəfdarlarını, həm də Suriyanı şəriət qanunlarına uyğun olaraq yenidən qurmaq istəyən radikal hökumət formasının tərəfdarlarını əhatə edir."

Ölkənin cənubunda Əsəd ailəsinin hakimiyyətini heç vaxt qəbul etməyən və çətin ki, Dəməşqdə yeni hökumətə tabe olan qəbilə silahlıları var. Şərqdə "İslam Dövləti" adlandırılan qruplaşmanın qalıqları ciddi təhlükəsizlik təhdidləri yaratmaqda davam edir və buna görə ABŞ-ın hava hücumları onları hədəf almağa davam edir. ABŞ-ın dəstəklədiyi kürdlərin rəhbərlik etdiyi Suriya Demokratik Qüvvələri ölkənin şimal-şərqinin bəzi hissələrinə nəzarət edir. Bu kürd qüvvələri illərdir Türkiyənin dəstəklədiyi Suriya Milli Ordusunun döyüşçüləri ilə ölkənin şimalında döyüşür. Bundan əlavə, 2011-ci ildən Suriyadan kənarda çoxsaylı müxalif qruplar və siyasi hərəkatlar yaranıb. Amma onların ölkəyə qayıdıb siyasi həll prosesində iştirak edib-etməyəcəyi hələlik bəlli deyil.

"Həyat Təhrir əl-Şam"ın avtoritar üsullarla hakimiyyətini möhkəmləndirməyə çalışacağı ilə bağlı qorxular var və əsassız deyil, çünki ölkədə son vaxtlar Əsəd rejiminə qarşı vuruşan və hakimiyyətin devrilməsi ilə çoxlu silahlı qruplar fəaliyyət göstərir ki, onlar mərkəzi hökumətin göstərişlərinə tabe ola bilməz. Belə olan halda, Dəməşq "itaətsiz səhra komandirlərini sakitləşdirməyin" zor üsullarına əl atmağa məcbur olacaq. Colani sabitlik və ictimai təhlükəsizliyin bərqərar olmasını prioritetləşdirməklə, "Həyat Təhrir əl-Şam"ın indiki "Taliban" kimi əhalinin dəstəyini qazana və dövləti effektiv şəkildə idarə edə biləcəyini göstərməyə çalışır.

Əl-Colaninin Əsədin devrilməsindən əvvəl verdiyi ilk bəyanatları onun həm ölkə daxilində, həm də beynəlxalq aləmdə öz hərəkatı üçün müsbət ictimai rəy yaratmaq məqsədi daşıyan ictimai əlaqələr kampaniyası ilə məşğul olduğunu göstərir. "Həyat Təhrir əş-Şam" terror təşkilatı siyahısında qalmasına baxmayaraq, bir neçə ildir ki, Əsəddən sonrakı Suriyada yeganə alternativ kimi mövqelərini ortaya qoyub və bununla da onunla gələcək danışıqlara zəmin yaradıblar. Başqa sözlə, "Həyat Təhrir əl-Şam" Suriya vətəndaş müharibəsinin aktiv fazasında, döyüşçülərinin Əsədin təhlükəsizlik qüvvələrindən heç də az qəddar və amansız olmadığı və çox vaxt özünü daha qəddar apardığı zaman özünü xarakterizə edən radikal formalardan uzaqlaşıb. Əl-Colaninin bu açıqlamaları onun təşkilatının əvvəlki təcrübəsini nəzərə aldığını və eyni zamanda onun arxasında duran xarici qüvvələrin, ilk növbədə Türkiyənin "əl-Colani layihəsi"nin həyata keçirilməsində maraqlı olduğunu göstərir. Bu, "əlverişli" inkişaflar vəziyyətindədir. Ən pis halda isə Suriya diktatura rejimləri devrildikdən sonra digər ölkələrdə baş verənlər kimi xaosa qərq olacaq. Bunun bariz nümunəsi Liviyada Müəmmər Qəddafi və İraqda Səddam Hüseyndir ki, onlar əvvəlcədən müəyyən edilmiş əvəzsiz hakimiyyətdən uzaqlaşdırılıb və bu ölkələrə xarici müdaxilə fəlakətli nəticələrə gətirib çıxarıb. Belə bir ssenaridə Suriyada müxtəlif silahlı qruplar arasında hakimiyyət uğrunda mübarizə xarici oyunçuların iştirakı ilə genişmiqyaslı qarşıdurmaya gətirib çıxara bilər ki, bu da son nəticədə nəinki Suriyada sabitliyi poza bilər, həm də bölgədəki yaxın ölkələrə də təsir edə bilər. Onu da nəzərə almaq lazımdır ki, mütləq hakimiyyət insanı korlayır və hakimiyyətə gələn hökmdarlar əvvəlcə böyük ümidlər bəsləyərək köklü islahatlar vəd etsələr də, hakimiyyətlərinin sonunda çox pis başa çatdığı barədə çoxlu misallar çəkmək olar. Əl-Colani Yaxın Şərqdə bir çox avtoritar hökmdarların taleyindən yayına biləcəkmi, bunu zaman göstərəcək".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 236 (8609) 27 dekabr 2024

# İrəvan silahlanma yarışında artıq uduzub

## Ermənistan büdcəsi silah aldığı ölkələrin sırasını və hərbi xərcləri ilbəil artırmağa imkan verməyəcək; erməni təhlilçilər iddia edirlər ki, guya Bakıya hücum üçün...

**Ermənistan İkinci Qarabağ müharibəsindən sonra regionda formalaşmış yeni geosiyasi reallığı müxtəlif vasitələrlə dəyişməyə, bu məqsədlə hərbi potensialını artırmağa çalışır. 2025-ci il üçün hərbi büdcəsini daha 20 faiz artıraraq 1,7 milyard dollara çatdırması deyilənlərin əyani təsdiqidir.**

Rəsmi İrəvanın 2023-cü ildən etibarən hərbi xərcləri 77 faiz artırması, kütləvi silahlanma siyasəti yürütməsi rəsmi Bakını adekvat tədbirlər görməyə sövq edir. Prezident İlham Əliyevin Rusiya mediasına son müsahibəsində Ermənistanın sürətlə silahlanma yarışına tab gətirə bilməyəcəyi haqda dedikləri Ermənistanda ciddi reaksiyalara səbəb olub. Erməni ekspertlərə görə, Azərbaycanın hərbi üstünlüyü hazırda obyektiv reallıqdır. Eyni zamanda Ermənistan iki ölkənin silahlı qüvvələri arasında imkanlar arasındakı fərqi azaltmaq üçün açıq şəkildə addımlar atır, lakin bu tədbirlərin real effektivliyi hələ də aydın deyil.

Rəsmi Bakı son illərdə Ermənistanın aqressiv ritorikasının regional sülhə, təhlükəsizliyə, habelə iki ölkə arasında etimad quruculuğuna ciddi təhdid olduğunu dəfələrlə bəyan etsə də, bu ölkə havadarları vasitəsilə silahlanmanı davam etdirir. Ermənistanın silah aldığı ölkələrin sırası ilbəil genişlənir, təcavüzkar ölkə Fransa, Hindistan, İran, Yunanıstan, ABŞ və Rusiyadan müxtəlif növ silah-sursat tədarük edir. Hazırda Yunanıstandan S-300 hava hücumundan müdafiə komplekslərinin silahlanmaya daxil edilməsi məsələsi müzakirə olunur. Erməni politoloq David Arutyunov deyib ki, eskalasiyanın mümkünlüyünü şərtləndirən əsas amil qüvvələr balansının qeyd olunmuş balansı və Bakının regionda dominantlıq planlarıdır. Erməni politoloq iddia edib ki, Azərbaycanın Ermənistanın digər ölkələrlə hərbi əməkdaşlığı ilə bağlı narahatlığının da səbəbi var. “Azərbaycan Ermənistanla hərbi əməkdaşlıqla bağlı bəyanatlarında bir sıra problemləri həll etməyə çalışır. Bu, ilk növbədə Ermənistanın suverenliyini məhdudlaşdıran qeyd olunmuş strategiyadır. Bundan əlavə, Ermənistanın guya "artan silahlanmasına" cavab olaraq Azərbaycanın Ermənistan tərəfinə qarşı edə biləcəyi mümkün hərəkətlərin əsasları qoyulur. Eyni zamanda bu bəyanatlar həm də tərəflər arasında qüvvələr balansının müəyyən qədər bərpasına mane olmaq istəyini göstərir ki, bu da digər amillərlə yanaşı, Azərbaycanın mövcud hərbi üstünlüyünün əslində o qədər də əhatəli olmaması ilə bağlıdır".

Aydındır ki, bu cür təsbitlər əslində erməni cəmiyyətini aldatmaqdır. Ermənistanın ölkəmizlə hərbi müstəvidə rəqabət aparması mümkün deyil. Əvvəla ona görə ki, hərbi gücü təmin edən amillər sırasında iqtisadi və demoqrafik üstünlük də vacib rol oynayır. Azərbaycanın 2025-ci il üçün müdafiə və təhlükəsizlik xərcləri 5 milyard dollar təşkil edəcək və bu da Ermənistanla müqayisədə 3 dəfə çoxdur. Bu bir daha göstərir ki, Azərbaycan əldə etdiyi zəfərlərlə arxayınlaşmır, hərbi gücünü artırır, ən müasir silahları və hərbi texnikanı Ordumuzun arsenalına daxil edir. Kütləvi silahlanmaya rəğmən, Ermənistanın Azərbaycanla hərbi müstəvidə rəqabət aparmaq və regiondakı geosiyasi vəziyyəti hansısa formada dəyişmək imkanları sıfıra bərabərdir. Bunu bir sıra beynəlxalq təşkilatların hesabatlarından da aydın görmək mümkündür. Dünya ölkələrinin hərbi gücünü araşdıran “Global Firepower” beynəlxalq təşkilatının 2024-cü il üzrə hesabatına əsasən, Azərbaycan dünyanın ən güclü ordusu reytinqində 59-cu, Ermənistan isə 102-ci yerdə qərarlaşıb.

**“Yeni Müsavat”a danışan hərbi ekspert Ramil Məmmədli Ermənistanın postmünaqişə dövründə silahlanmasını iki cür izah edir:** “Birincisi, daxili auditoriyaya göstərilir ki, Ermənistana ciddi hərbi dəstək var. Paşinyan KTMT-dən üz çevirməyin, Rusiyanın ölkəsinə guya dönük çıxmağın müsbət nəticələrini xalqına nümayiş etdirir. Bununla demək istəyir ki, Rusiyadan bizə xeyir olmadı, Fransa, ABŞ, Yunanıstan yanımızdadır. Eyni zamanda təhlükəsizlik sahəsində vektorunu dəyişərək yeni müttəfiqlər tapdığını göstərməyə çalışır. Əlbəttə, Kipr, Yunanıstan, yaxud Fransanın hansısa silahları Azərbaycanla döyüşməyə yetərli deyil. Ermənistan yaxşı başa düşür ki, bu silahlanmanı artırmaqla revanş götürmək mümkün olmayacaq. Heç xalq da növbəti müharibəyə və minlərlə erməni əsgərinin ölümünə hazır deyil. Sadəcə, Ermənistanın dəstəksiz qalmadığı görüntüsü yaradılır”.

**Hərbi ekspertin fikrincə, ikincisi, müharibədə Ermənistan Silahlı Qüvvələrinin minlərlə hərbi texnikası məhv edilib, bir hissəsi Hərbi Qənimətlər Parkında nümayiş olunur:** “Buna görə Ermənistan ordunu yenidən bərpa etməyə başlayıb. Nəzərə alaq ki, 44 gün davam edən müharibənin hər dəqiqəsi erməni ordusunun silah-sursatı darmadağın olunurdu. Yəni indi onun arsenalı, anbarları bomboş kimidir. Qərb də bu fürsətdən istifadə edərək onu silahlandırmaqla regiona yerləşməyə çalışır. Bununla Ermənistanın yanında dayandıqlarını göstərirlər. Bir sözlə, bu silahlanmaya birtərəfli baxmağın tərəfdarı deyiləm. İrəvan onsuz da yarışa girmək qabiliyyətinə malik deyil”.

**R.Məmmədli üçüncü amil kimi Rusiyanın hərbi şinelindən Ermənistanın çıxarılması cəhdlərini müşahidə edir:** “Zvartnots aeroportundan rus sərhədçilər çıxdılar, İranla sərhəddən də getməyə hazırlaşırlar, Azərbaycanla delimitasiya olunmuş əraziləri də tərk etdilər, qalır Türkiyə sərhədlərində rus hərbçiləri. Əgər "Marqara" keçid məntəqəsi nə zamansa işə düşsə, oradan da gedəcəklər. Nəhayət, bunun finalı kimi Gümrü və Erebunidən Rusiyanın hərbi bazasının, eləcə də aviabazasının çıxarılması hədəflənib. Lakin Paşinyan olduqca xam xəyallara qapılıb. O, Rusiyanın gücünü ya kiçildir, ya da Qərbdən indiki dəstəyi çox böyüdür. Həmin Qərb Gürcüstan və Ukraynada göz qabağındadır. İndi Ermənistanda rusların hərbi təsirlərini azaltmaq, guya Rusiyanı bu ölkədən çıxarmaq üçün strategiya var, amma Moskvanın İrəvanda yüzillərlə oturuşmuş təzyiq resurslarını, potensialını qiymətləndirə bilmirlər. Qısası, silahlanmada üç məqsəd var: erməni ordusunda sovet-rus hərbi məktəbinin təsirlərini aradan qaldırmaq, Rusiyanın bu ölkədə hərbi varlığına son qoymaq; ardınca, Qərbin dəstəyini nümayiş etdirmək və müharibədə biabır olmuş erməni ordusunu qismən dirçəltmək. Buna “Marşal planı” da deyilir. Azərbaycanla yeni müharibəyə hazırlıq versiyasını sonuncu punkt kimi görürəm. Ermənilərin Azərbaycanın guya bu silahlanmanı əsas gətirib yeni hərbi addımlar atacağı ilə bağlı iddiaları isə cəfəngdir. Biz nizamlanma prosesini dəstəkləyirik".



**Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

## Hindistan PUA vurmaq üçün İrəvanda zavod filialı açır

**Hindistan yaxın bir neçə ay ərzində Ermənistana “Akaş” zenit-raket komplekslərinin tədarükünə başlayır. Məlumata görə, Ermənistan bu silahlara görə Hindistana 600 milyon dollar ödəyib.**

“Akash” “Bharat Dynamics Limited” (BDL) tərəfindən istehsal olunan kiçik hərəkət radiusuna malik mobil zenit-raket kompleksidir. Kompleks eyni vaxtda bir neçə hədəfi (düşmənin raketləri, həmçinin helikopterlər, qırıcılar və 425 km məsafədə pilotsuz uçuş aparatları) vura bilir. Ermənistan Hindistandan artıq bu silahdan iki kompleks alıb və daha ikisi üçün sifariş verib.

Bundan əvvəl Ermənistan Hindistandan “Pinaka” reaktiv yaylım atəşi sistemləri, “Konkurs” tank əleyhinə raket kompleksləri (Rusiya patenti əsasında Hindistanda istehsal olunur), həmçinin 80 mm-lik haubitsalar və digər silah növləri alıb.

Qeyd edək ki, Hindistanın pilotsuz təyyarələri vurmaq üçün hava hücumundan müdafiə sistemləri istehsal edən “Zen Technologies” şirkəti Ermənistanda filial açmaq niyyətindədir.

## Rusiya yeni “Su-57” və “Su-34” təyyarələrini orduya verdi

**Rusiya Müdafiə Nazirliyi “United Aircraft Corporation” (UAC) tərəfindən istehsal edilən yeni “Su-57 Felon” və “Su-34 Fullback” döyüş təyyarələrini təhvil alıb.**

UAC Rusiyanın aviasiya və kosmos sahəsində mühüm dövlət müəssisələrindən biri olan “Rostec”in tərkibində bu təyyarələrin istehsalı və çatdırılmasını öz üzərinə götürüb.

Təhvil verilən təyyarələr Ukraynada hərbi əməliyyatlarda iştirak edən Rusiya Hərbi Hava Qüvvələrinin potensialını artırmağı hədəfləyir.

“Rostec”in baş direktoru Sergey Çemezov verdiyi açıqlamada “Su-57” və "Su-34"ün texniki üstünlüyünə diqqət çəkib. ""Su-34" üstün texniki xüsusiyyətləri ilə pilotların etibarını qazanmış bir təyyarədir. "Su-57" qabaqcıl hava hücumundan müdafiə sistemlərinə qarşı aşağı radara görünmə qabiliyyətini təmin edən və dəqiq idarə olunan silahlarla geniş spektrli hədəflərə effektiv hücum edə bilən beşinci nəsil döyüş təyyarəsidir", - deyə o vurğulayıb.



# Vurulub düşən suallar

Zamin HACI
zaminhaci@gmail.com

**Yalnız Qroznı və Mahaçqalaya uçuşları dayandırmaqla iş bitmir. Məncə təhlükəsizlik baxımından hazırda bütün Rusiya hava limanları ölüm saçır, ümumən Rusiya üzərindən uçmağı AZAL və başqa aviaşirkətlərimiz dayandırmalıdır. Burada təkcə "başqa dövlətin torpağını işğal edənlərə heç salam vermək də düz deyil" məntiqi işləmir. Ən azı vətəndaşlarımızın can sağlığını düşünməliyik. 2022-ci ilin fevralından, Rusiya savaşa başlayandan bəri Ukrayna hava məkanı tam bağlıdır, orada hər hansı mülki təyyarələr uçmur. Çünki təhlükəlidir. Ukrayna eyni, qarşılıqlı cavab zərbəsi olaraq Rusiya hava limanlarına hücumlar düzəldir. Özü də bu hücumların arealı yetərincə genişdir. Sankt-Peterburq, Pskov hava limanlarından Moskva, Kazan, Voronejə qədər. Hətta Kalininqrada qədər uçan dronları var ukraynalı savaşçıların. Özü də kiçik təyyarəyə oxşayan bu dronları sərnişin təyyarəsi ilə qarışdırmaq və vurmaq asan, daha doğrusu, mümkündür. Bu rus şəhərlərinin isə bir çoxuna Bakıdan uçuşlar var. Hamısı təhlükəlidir.**

Döyüş, müharibə gedən ölkələrdə bu cür hallar qaçılmazdır. 2014-cü ildə Rusiyanın əlaltıları Donetsk vilayəti üzərində Malayziyaya məxsus, Amsterdam-Kuala-Lumpur marşrutu üzrə uçan Boinq təyyarəsini "Buk" qurğusuyla vurmuşdular, 298 nəfər ölmüşdü. Beynəlxalq komissiya, ekspertlər bütün sübutları topladılar, cinayəti törədən adamların adları da çoxdan məlumdur, lakin kimsə cəzalanmadı. (Bunu bizim təyyarənin istintaqından nəsə haqq-ədalət gözləyənlər üçün yazıram). Çünki bəziləri rus xüsusi xidmətlərinin agenti olan həmin adamları tutub Haaqa məhkəməsinə aparmaq mümkün deyil. Londonda poloniumu çaya qatıb adam öldürəni Dumaya deputat seçirlər, nə qoyub, nə axtarırıq... Heç "Ryazan qəndi" əhvalatını yada salmıram.

Yaxud, 17 mart, 1994-cü ildə Qarabağ, konkret Xankəndi üzərində İran təyyarəsini erməni separatçıları vurmuşdular. Təyyarə Moskvadan Tehrana uçurdu və İranın Rusiya səfirliyi əməkdaşlarının ailə üzvlərini Novruz bayramı üçün evlərinə aparırdı. Yazıqlar hamısı ölmüşdü - 19 sərnişin və 13 heyət üzvü. Cəmi 32 nəfər.

Yeri gəlmişkən, İran həmin hadisəyə görə qardaşlığı Ermənistana nəsə göz ağartdımı? Yox. Heç bir dığanın burnu da qanamadı, ümumiyyətlə, cərimə edilən belə olmamışdı. Ermənistan və İran qardaşlığı belə "xırda" itkilər üzündən sarsılası deyildi ki? Biz vursaq hay-küyü, vay-şivəni təsəvvür edin...

Bir məsələ də var, beynəlxalq konvensiyalara görə müharibə zonalarında hansısa təyyarəni, ümumiyyətlə, nəqliyyat vasitəsini məhv etməzdən öncə dəqiqləşdirmə aparılmalıdır, onun mülki, yoxsa hərbi obyekt olduğu bütün mümkün üsullarla öyrənilməlidir. Təəssüf ki, Rusiyada, elə bütün keçmiş SSRİ məkanında da "dovşanın qulağını kəsib, sonra sayırlar".

İndiki hadisə necə olub, böyük ehtimalla biz əsl həqiqəti bilməyəcəyik. Çünki bu işi araşdıran orqanların təcrübəsində şəffaflıq anlayışı yoxdur. O cümlədən, xalqın inamı da yoxdur. Yəni, lap düzünü desələr belə heç kim inanmayacaq. Saysız və cavabsız suallar havada uçuşub, hədəfə gəlib, axırda Xəzər sahilində hardasa yerə çırpılıb əbədi susacaq. Ancaq suallar rəhmətə getməzdən qabaq xatirə üçün bir-ikisini burda yazıram: "Əgər səbəb məlum deyildisə, ilk anlarda "quş və salonda balon partlayışı" versiyalarını kim xəbər məkanına ötürmüşdü və burda qəsd vardımı", "Qroznıya enmək mümkün olmayanda, niyə bizim daha yaxın Zaqatala və Qəbələ hava limanlarımız deyil, uzaq Aktau seçilib və hətta orda da eniş mümkün olmayıb", "Qroznıdakı dispetçerin təyyarəni daha uzağa göndərməsində qəsd varmı, çünki adətən eniş mümkün olmayanda növbəti hava limanını yerdən təklif edirlər" və sairə.

Bu yazıda ən kədərli hissə də elə onun "və sairə" ifadəsi ilə bitməyidir.

**Fransa Daxili İşlər Nazirliyinin Ərazi Kəşfiyyatı üzrə Milli İdarəsinin rəisi Bertrand Çamoulaud Fransanın Afrikadakı mövcudluğundan danışarkən Bakı Təşəbbüs Qrupunun adını çəkib.**





# Fransa kəşfiyyatı Bakının gücünü etiraf etdi

## Paris Azərbaycanın haqlı mövqeyi qarşısında aciz qalıb

"Le Monde" qəzetinə müsahibəsində o etiraf edib ki, dənizaşırı ərazilərdə kolonializmə qarşı cərəyan güclənir. "Onların təsiri bu tip müstəqillik hərəkatlarını dəstəkləyən və onlara tribuna verən Bakı Təşəbbüs Qrupu kimi xarici aktorlar tərəfindən gücləndirilib".

Ərazi Kəşfiyyatı üzrə Milli İdarənin dənizaşırı ərazilərdəki hərəkatlara təsir gücünün zəif olduğunu etiraf edən B.Çamoulaud bildirib ki, informasiya müharibəsi şəraitində Kemi Seba kimi şəxslər "fransız diplomatiyasına zərbə vurur".

Xatırladaq ki, Kemi Seba bu ilin oktyabrında Bakıda keçirilən "Afrikada Fransanın neokolonializm siyasətinə" həsr edilmiş beynəlxalq konfransda çıxışı zamanı Azərbaycanın kolonizasiyaya qarşı ən ciddi mübarizə aparanlar sırasında olduğunu bildirmişdi. Azərbaycandan qayıtdıqdan sonra Fransa xüsusi xidmət orqanları onu saxlasa da, tezliklə sərbəst buraxmağa məcbur olmuşdu.

**Politoloq Yusif Bağırzadə** "Yeni Müsavat"a şərhində bildirdi ki, Fransa Daxili İşlər Nazirliyinin Ərazi Kəşfiyyatı üzrə Milli İdarəsinin rəisinin dedikləri Fransa kəşfiyyatının Bakının gücünü etiraf etməsidir: "Eyni zamanda Fransa Daxili İşlər Nazirliyinin Ərazi Kəşfiyyatı üzrə Milli İdarəsinin rəisinin bu tip açıqlaması rəsmi Parisin acizliyinin göstəricisidir. Yəni Fransa kimi bir ölkənin kəşfiyyatına cavabdeh şəxs bilərəkdən ya da bilməyərəkdən Bakının təşəbbüsləri qarşısında aciz qaldıqlarını etiraf edib".

**Politoloq onu da qeyd etdi ki, bu, rəsmi Parisin ilk acizliyi deyil:** "Azərbaycan Fransanın casus şəbəkəsinə bu ölkənin tarixində görünməyən zərbə vuraraq Cənubi Qafqazda, Moldova və Ukraynada kök atmış, Şərqi Avropa və Yaxın Şərqə uzanan böyük casus şəbəkəsini ifşa etməsindən sonra da rəsmi Paris bu cür aciz duruma düşmüşdü. Ölkəmiz haqlı olaraq Fransanın apardığı müstəmləkəçilik siyasətinə qarşı dünyanın dörd bir yanında haqq səsini qaldıran xalqların hüquqları ilə bağlı mövqe bildirərək, beynəlxalq tribunalarda rəsmi Parisin neokolonializm siyasətini tam çılpaqlığı ilə ifşa edir. Dənizaşırı ərazilərdə kolonalizmə qarşı cərəyanın gücləndiyini etiraf edən Bertrand Çamouland müstəqillik hərəkatlarının Bakı Təşəbbüs Qrupu kimi aktorlar tərəfindən gücləndirildiyini deyir. Halbuki rəsmi Paris Azərbaycanı ittiham etmək əvəzinə, beynəlxalq hüquq normalarına riayət etsə, bütün bu problemlərlə də üzləşməz".

**Y.Bağırzadənin sözlərinə görə, Fransa bilməlidir ki, müstəmləkə siyasəti və ya yerli xalqlara qarşı aparılan hüquqa zidd addımlar heç bir halda Fransanın daxili işi hesab oluna bilməz və Azərbaycan da bu səpkili fəaliyyətlə əslində insan hüquq və beynəlxalq hüququn təməl prinsiplərini müdafiə edir:** "Göründüyü kimi, artıq 21-ci əsr olmasına baxmayaraq Fransa hələ də əsrlər boyu davam etdirdiyi müstəmləkə siyasətindən əl çəkmir. Dünyaya demokratiya dərsi keçməyə cəhd edən Fransa hakimiyyətinin istər müstəmləkə altında saxladığı xalqlara, istərsə də elə sadə fransızlara qarşı həyata keçirdiyi siyasət Makron hakimiyyətinin eybəcərliyini bütün çılpaqlığı ilə ortaya qoyur. Yeni Kaledoniya, Fransız Polineziyası, Fransız Qvianası, Martinik, Qvadelupa, Vallis və Futuna, Korsika, Qəmər Adaları İttifaqı və Haiti kimi Fransanın müstəmləkəsi altında olan dənizaşırı ərazilərin xalqları da haqlı olaraq yüz illərdir davam etdirilən ədalətsizliyə son qoyulmasını, hüquqlarının bərpa edilməsini istəyirlər. Bu onların haqqıdır və özünü insan hüquqlarının müdafiəçisi adlandıran ayrı-ayrı ölkələr, beynəlxalq qurumların da Bakı Təşəbbüs Qrupu kimi onların haqlı tələblərinə dəstək verməsi lazımdır".

**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri Xəyal Başirov isə bildirdi ki, Bakı Təşəbbüs Qrupunun fəaliyyətinin nəticələri açıq şəkildə görünməkdədir**: "Artıq bu fəaliyyətin nəticələrini Fransa hiss etməkdədir. Ona görə də narahatlıqlarını etiraf formasında dilə gətirirlər. Rəsmi Bakının gücü etiraf edilir. Rəsmi Bakı müxtəlif yollarla, o cümlədən Bakı Təşəbbüs Qrupu vasitəsilə kolonializmə qarşı mübarizəni davam etdirir. Bakı Təşəbbüs Qrupu sıradan bir təşkilat deyil. Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatına üzv olan 20 dövləti, ümumilikdə beynəlxalq hüququn 45 subyektini birləşdirən bir təşkilatın yaratdığı Qrupdur. Onun yaradılması zamanı qarşısına qoyulan məqsədlər hamıya bəlli idi. Bu gün o qrupun fəaliyyəti təkcə Azərbaycanda keçirilən tədbirlərlə məhdudlaşmır. BMT-nin baş ofisində, Cenevrə ofisində, Türkiyədə, dünyanın ayrı-ayrı dövlətlərində Bakı Təşəbbüs Qrupu çox miqyaslı tədbirlər keçirir. Bu tədbirlər zamanı cəlb olunan tərəflər bir başa Fransanın kolonialist siyasətindən əziyyət çəkən və bu gün də neokolonialist siyasətindən əziyyət çəkməkdə olan dənizaşırı dövlətlərin, xalqların nümayəndələri iştirak edirlər. Təbii ki, onların dilindən səslənidirlən real faktlar dünyanın bu məsələyə diqqətini yönəltməyə gətirib çıxarır. Fransanı da narahat edən budur və Fransa bu prosesin qarşısını almaqda acizdir. Aparılan proses Fransanın digər koloniyalarında da ona qarşı hərəkətlənməni meydana gətirir. Fransa Nigerdən, Afrikanın digər ərazilərindən niyə qovulur? Təbii ki, belə addımların sayəsində. Biz bu prosesin daha da genişlənməsini bundan sonra da görəcəyik. Fransa nə qədər əsassız iddialar səsləndirsə də ki, Azərbaycan onun daxili işlərinə qarışır, insan hüquq və azadlıqlarının dövlətlərin daxili işi olmadığını Fransa özü hər addım başı səsləndirir. Müstəmləkəçilik siyasətindən əziyyət çəkən insanların, xalqların hüquqları ilə bağlı problem Fransanın daxili məsələsi deyil".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

Yeni MÜSAVAT
N 236 (8609) 27 dekabr 2024

# İki gün sonra Gürcüstanda nələr olacaq?

## Prezidentliyi bitən Zurabişvilini iqamətgahından zorla çıxaracaqlar

**Dekabrın 29-da Gürcüstanın yeni seçilən prezidenti Mixail Kavelaşvilinin andiçmə mərasimi olacaq. Həmin gündən hazırkı prezident Salome Zurabişvili səlahiyyətlərindən rəsmən məhrum olacaq. Ancaq Salome Zurabişvili yeni prezidentin legitim olmadığını bəyan edərək prezident vəzifəsindən getməyəcəyini elan edib. Zurabişvili Gürcüstanda etirazların başında dayanır və Avropa İttifaqı, Fransa və bir sıra Qərb dövlətləri tərəfindən dəstəklənir. Bu da onun dirəniş göstərməsinə gətirib çıxaran əsas faktor kimi qiymətləndirilir.**



Gürcüstanın baş naziri İrakli Kobaxidze isə kreslosundan əl çəkmək istəməyən keçmiş Zurabişviliyə qanunlara tabe olub dekabrın 29-da vəzifəsini tərk etməsi xəbərdarlığını edib. Baş nazir səlahiyyət müddətinin bitməsinə sayılı günlər qalmış prezidenti həbslə hədələməkdən belə çəkinməyib: "Görəcəyik ki, o, həyatını harada, dəmir barmaqlıqlar arxasında, yoxsa azadlıqda davam etdirəcək".

Maraqlıdır ki, məhz bu ərəfədə ATƏT Müşahidə Missiyası 26 oktyabr parlament seçkiləri ilə bağlı yekun rəyini açıqlayıb və Avropa Parlamentinin mövqeyinə diametral zidd olaraq, nəticələri tanıyıb. Buna görə Kobaxidze ATƏT-ə təşəkkür də edib.

ATƏT-in bu mövqeyi Kobaxidze hökumətinin əlini gücləndirib. Zurabişvili isə sonda geri çəkilməyə vadar edə bilərmi?

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a bildirdi ki, ATƏT-in müşahidə missiyasının Gürcüstanda keçirilən seçkilərin nəticələrini tanıması şübhəsiz Kobaxidzen hökumətinin mövqelərinin güclənməsinə gətirib çıxarır: "Uzun müddətdir davam edən mitinqlərin qarşısında geri addım atmayan hökumət bundan sonra daha da arxayınlaşacaq və sərt davranacaq. Eyni zamanda ATƏT-in Müşahidə Missiyasının seçkilərlə bağlı mövqeyi etirazçıların müəyyən qədər həvəsdən düşməsinə, inamlarının azalmasına səbəb olacaq. Artıq bir neçə gündür məhz bu tendensiya müşahidə olunur, yürüş-mitinqlərə çıxanların sayında, aktivliyində enmə var. Bu isə Zurabişvilinin də mövqeyinə təsir edə bilər. Nəticəsizlik və seçkilərə ATƏT müşahidə missiyasının verdiyi qiymət Salome Zurabişvilinin sona qədər dirəniş göstərməməsinə də səbəb ola bilər. Ancaq Zurabişvilinin birbaşa Fransadan təlimatlar aldığını nəzərə alsaq, onun dekabrın 29-da necə hərəkət edəcəyinin özündən çox Parisdən gələn təlimatdan asılı olacağını söyləmək mümkündür. Fransa isə belə görünür ki, Gürcüstanda sabitlik istəmir, gərginliyin daha da artmasında maraqlıdır. Hökumətin dəstəklədiyi yeni prezident Kavelaşvili şübhəsiz 29 dekabrda prezident kimi fəaliyyətə başlayacaq. Zurabişvili və etirazçılar bunun qarşısını ala bilməyəcəklər".

**Politoloq Məhəmməd Əsədullazadə isə bildirdi ki, Gürcüstanda keçirilən seçkilərin nəticələrinə prezident Salome Zurabaşvili etiraz etsə də, yeni seçilən prezidentin fəaliyyətə başlamasının qarşısını ala biləcək gücdə deyil**: "Göründüyü kimi, o, Qərbin təlimatları ilə hərəkət edir. Ancaq keçirilən etirazlara baxmayaraq hakimiyyət öz dayanıqlığını qoruyub saxlaya bildi. Baş nazir Kobaxidzenin Avropa İttifaqı ilə danışıqları dayandırması müəyyən etirazlara gətirib çıxarsa da inqilab baş tutmadı. Çalışılırdı ki, inqilab olsun və "Gürcü Arzusu" hökuməti devrilsin. Avropa İttifaqının prezidenti ilə Gürcüstan hökuməti arasında danışıqlar aparıldı. Müəyyən razılaşmalar əldə edilib. Gürcüstan hökuməti xarici agentlər haqqında qanununa dəyişikliklər edəcək. ATƏT-in seçkinin nəticələrini tanıması Qərbin güzəştə getməsidir, bükə bilmədikləri əli öpmək kimidir. Salome Zurabaşvilinin səlahiyyətləri 29 dekabrda bitəcək və o, nə etməsindən asılı olmayaraq vəzifəsindən gedəcək, yeni prezident səlahiyyətlərinin icrasına başlayacaq. "Gürcü Arzusu"nun əli son bir neçə həftədə daha da güclənib. Ona heç bir dirənişlə mane olmaq mümkün deyil. Qarşıdakı günlərdə Avropa Parlamentinin mövqeyi də dəyişəcək. Bir sözlə, Gürcüstanda inqilab baş tutmadı. Amma hökumət də Qərblə müəyyən anlaşmağa məcbur olur. Zurabişvilini prezident iqamətgahından güclə çıxaracaqlar. Ona cinayət işi də açıla bilər. Qərblə hökumət anlaşacaq. Nəticədə Zurabaşvilinin mövqeyi kifayət qədər zəifləyəcək. Proseslər hökumətin lehinə dəyişir. Bir müddətdən sonra Qərb hökumətlə işləməyə başlayacaq. Çünki Gürcüstan müxalifəti bir deyil, vahid bir şəkildə fəaliyyət göstərmirlər. Zurabaşvili də məcbur qalıb geri çəkiləcək".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Qlobal savaş astanasında

## Rusiya və NATO-dan birbaşa toqquşma barədə bəyanatlar çoxalıb - dünya müharibəsi necə başlaya bilər?



**Dekabrın ortalarında bir neçə yüksək çinli rus məmuru yaxın gələcəkdə Rusiya ilə NATO arasında birbaşa qarşıdurmanın mümkünlüyünü açıqladı. Ukraynadakı münaqişənin sülh yolu ilə həllindən danışılmasına baxmayaraq, Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko NATO-nun Rusiya ilə müharibəyə hazırlığına işarə edib. Müdafiə naziri Andrey Belousov isə qoşunların belə bir ssenariyə hazır olduğunu bildirib.**

"Lenta.ru" (mənbə: Ayna.az) Rusiya ilə NATO arasında birbaşa toqquşma ssenarisinin nə dərəcədə mümkün olduğunu və münaqişənin kəskin şəkildə artmasına nəyin səbəb ola biləcəyini araşdırıb.

"Doğrudan da, təkcə jurnalistlər deyil, həm də siyasətçilər dəfələrlə Ukraynadakı münaqişənin Rusiya ilə NATO arasında tammiqyaslı qarşıdurmaya çevrilməsi fikrini səsləndiriblər və prezident Vladimir Putin Avropa İttifaqını gərginliyin artmasına görə məsuliyyət daşıdığını deyib. Eyni zamanda Rusiyanın NATO ölkələrinə hücumunu istisna etməyib. Xatırladaq ki, Putin konkret "qırmızı xətləri" qeyd edib ki, onları keçdikdən sonra NATO Ukraynadakı münaqişənin tərəfi sayılacaq. Müzakirə, xüsusən onların Rusiya ərazisinin dərinliklərinə zərbə endirmək icazəsi ilə bağlı olub. Çünki onun sözlərinə görə, bu, yalnız Qərb peyklərinin məlumatlarından istifadə etməklə mümkündür", - deyə məqalədə vurğulanır.

Rusiya tərəfindən NATO ilə real qarşıdurmanın başlanması ilə bağlı konkret rəsmi açıqlamalar verilməyib. Əksinə, Rusiya ümid edir ki, hətta Ukraynaya öz ərazisində ATACMS raketlərindən istifadə etməyə icazə verildikdən sonra belə, müharibənin qarşısını almaq olar: "Rusiya ilə NATO arasında müharibə ehtimalı və hətta reallığı Qərb ölkələrində də müzakirə olunur. "Bild"ə görə, dekabrın ortalarında Brüsseldə təhlükəsizlik ekspertləri ilə görüşdə baş katib Mark Rutte "Rusiya artıq Şimali Atlantika Alyansı ilə gizli deyil, açıq qarşıdurma ilə məşğuldur" dedi. Düzdür, Ruttenin gətirdiyi Rusiyanın aqressiv hərəkətlərinin konkret nümunələri kiberhücumlar, seçkilərə müdaxilə və Alyans ölkələrinin sərhədlərində vəziyyətin sabitliyinin pozulması ilə məhdudlaşır. Amma tez-tez NATO-nun hərbi rəhbərliyinin nümayəndələri birbaşa qarşıdurma haqqında danışırlar. Eyni zamanda yüksək dəqiqlikli bombardman da daxil olmaqla, "qabaqcıl zərbə" endirmə ehtimalı NATO tərəfindən inkar edilmir. Məsələn, NATO Hərbi Komitəsinin sədri admiral Rob Bauer, "biz ilk növbədə zərbə endirməliyik" deyə bildirib. Polşalı general Tomaş Piotrovski də onunla qiyabi razılaşdığını bildirib. O etiraf edib ki, münaqişə Rusiya və ya Belarusun Polşa ilə sərhədi raket və ya şarlarla pozması, hətta kiberhücumla başlaya bilər ki, bunun da nəticəsi "fəlakətli olacaq".

Bu cür fikirlər çox güman ki, Rusiyanın NATO-ya qarşı müharibə aparmaq imkanlarının təhlilindən irəli gəlir və bu, yenə də Qərb hərbçiləri tərəfindən daim qiymətləndirilir. Belə ki, bu ilin yanvarında "Bild" tərəfindən qismən dərc edilən Almaniya Müdafiə Nazirliyinin məxfi sənədi geniş yayılıb. Toqquşmanın Ukraynada münaqişənin kəskin artması və Rusiya Silahlı Qüvvələrinin güclü hücumundan sonra baş verəcəyi gözlənilir. Bununla belə, "Bild" Rusiya və NATO bölmələri arasında döyüşlər üçün ən çox ehtimal olunan yer kimi Belarus və Kalininqrad vilayəti arasında yerləşən Suvalki dəhlizini göstərib. Bildirilib ki, yüz minlərlə NATO əsgəri qarşıdurmada iştirak edə bilər.

Bundan əlavə, Qərb mətbuatı Almaniya Müdafiə Nazirliyinin cari il ərzində digər hərbi planlarını dərc edib. Onları birləşdirən ilk növbədə, Rusiyanın NATO-nun potensial düşməni olması və Rusiya tərəfdən ilk zərbənin endirilməsi ehtimalıdır. Bu sənədlərdə təfərrüatlı əks-işğal tədbirləri, o cümlədən NATO-nun 800 min əsgərinin Alyansın şərq cinahına sürətlə köçürülməsi daxildir.

Həm Rusiya, həm də Qərb müşahidəçiləri uzun müddətdir ki, NATO ilə Rusiya arasında əslində nəyin toqquşmaya səbəb ola biləcəyini müzakirə edirlər. Söhbət təkcə Ukrayna Silahlı Qüvvələrinin Qərb silahları ilə Rusiya ərazisinə uzaqmənzilli zərbələrindən deyil, həm də NATO ölkələrinin digər mübahisəli hərəkətlərindən gedir.

Qərb qoşunlarının cəbhədə görünməsi Ukraynanın problemləri ilə əlaqələndirildi və rus bölmələrinin gələcək uğurlarının qarşısını almağın yeganə yolu hesab edildi. Doğrudan da NATO-ya üzv ölkələrin nümayəndələri Ukrayna Silahlı Qüvvələrindəki taktiki böhranlar kontekstində bu məsələyə qayıtdılar. Rusiyada təbii ki, bu cür planlar dərhal faciəli adlandırıldı, münaqişənin yeni eskalasiyasına səbəb oldu və NATO əsgərləri məhv edilmə hədəfi adlandırıldı.

İndi isə NATO əsgərlərinin Ukraynaya yeridilməsi sülh nizamlanmasının bir hissəsi kimi qəbul olunmağa başlayıb. Beləliklə, avropalı siyasətçilər NATO bayrağı altında və sülhməramlılar kimi yox, 100 minlik kontingent göndərməyi müzakirə ediblər. Ukrayna prezidenti Volodimir Zelenski də Parisdə Emmanuel Makronla bu yaxınlarda görüşü zamanı eyni təkliflə çıxış edib.

Eyni zamanda, Rusiya ilə NATO ölkələri arasında gərginliyin artması Ukraynadan kənarda da baş verə bilər. Məsələn, Danimarka bu yaxınlarda Baltik dənizində Rusiyadan təxribatlar gözlədiyini açıqladı. Bu şərtlər daxilində Danimarka tərəfi boğazlardan keçən Rusiya gəmilərində yoxlamaları gücləndirmək, xüsusən də onlardan sığorta məlumatları tələb etmək niyyətindədir. Bununla belə, üzmə azadlığına dair beynəlxalq qanunlara uyğun olaraq, gəmilər belə bir tələbdən imtina edə bilər. İndiki şəraitdə bu, müxtəlif insidentlərə səbəb ola bilər".

❑ **"Yeni Müsavat"**

MÜSAVAT YENİ
N 236 (8609) 27 dekabr 2024




# “Sədərək” və “Binə”də qiymətlər artacaq

## Vergi Məcəlləsindəki dəyişiklik ticarət mərkəzlərində 2025-ci ildən fəaliyyət göstərən sahibkarlara şamil ediləcək

**Azərbaycanda bazarlarda işləyən sahibkarlardan vergi uçotunda olmaları tələb ediləcək. Əks təqdirdə, hər bir uçotsuz sahibkar üçün bazar mülkiyyətçilərinə və ya idarəçilərinə 2 min manat maliyyə sanksiyası tətbiq ediləcək. Vergi Məcəlləsindəki dəyişiklik ticarət mərkəzlərində 2025-ci ildən fəaliyyət göstərən sahibkarlara şamil ediləcək.**

O da məlumdur ki, bazarlarda bir sıra məhsulların qiyməti dükanlarla müqayisədə nisbətən aşağıdır. Tikinti materiallarından tutmuş, geyim məhsullarına qədər bir sıra məhsullar bazarlarda daha sərfəli qiymətə olduğu üçün əhali ora gedir. Xüsusən “Sədərək”, “Binə” və digər böyük bazarlarda sahibkarların çoxu vergi vermir. O baxımdan yeni qərar bazarlarda qiymətlərin artmasına necə təsir edəcək?

**İqtisadçı Elmir Səfərli** deyir ki, vergi uçotunda olmaq ilk növbədə sahibkarların özləri üçün faydalıdır. Çünki bütün ödənişlər artıq qeyri-nağd üsulla aparılır. Buna görə də bank hesablarına və daxil olan maliyyə vəsaitinə nəzarət etmək üçün vergi uçotuna durmaq şərtdir: “Bununla da onlar həm dövriyyələrini, həm də vergilərini rəsmi şəkildə göstərəcəklər. 2025-ci ildən etibarən müəyyən sahibkarıq növləri var ki, onlara xüsusi güzəştlər tətbiq ediləcək. Xərclər çıxıldıqdan sonra yerdə qalan məbləğin 20 faizi, yəni ümumi dövriyyənin 5 faizi qədər mənfəət vermə kimi şanslar ortaya qoyulur. Bu da sahibkarlar üçün faydalıdır. Onlar müəyyən qədər 15 faizli böyük vergidən azad olunacaqlar. Bunun iqtisadiyyata da böyük təsiri var. Büdcə gəlirinin, vergiyə daxil olmaların artırılması üçün önəmli şərtdir. Bu faydalar sahibkarlara izah edilməlidir ki, yayınmasınlar, əksinə, can atsınlar. Bu zaman hər iki tərəfə - həm dövlətə, həm də sahibkarlara sərfəli olacaq”.

**Ekspert deyir ki, bu dəyişiklik qiymət artımına təsir etmir:** “Qiymət artımına maya dəyərinin artması təsir edə bilər. Verilən vergilərin həcmi artırılarsa, qiymət artar. Bunların heç biri baş verməyi üçün qiymət artımından söhbət gedə bilməz. Hər hansı sahibkarın vergi uçotunu bəhanə edib qiyməti qaldırması süni artımdır”.

❑ **Şahanə RƏHİMLİ, Musavat.com**



# BMT hakerləri düşmən elan etdi - Azərbaycan da bunu istəyirdi

## Əfsər Sadıqov: “Kibercinayətkarların təqibi baxımından bu konvensiya əhəmiyyətli olacaq”

**BMT Baş Assambleyası 24 dekabr 2024-cü ildə “Kibercinayətkarlığa qarşı BMT Konvensiyası”nı qəbul edib. Bu, kibercinayətkarlıqla mübarizə aparmaq və cəmiyyətləri rəqəmsal təhdidlərdən qorumaq məqsədi daşıyan əlamətdar qlobal müqavilədir.**

Hüquqi cəhətdən məcburi olan konvensiya BMT-yə üzv dövlətlərin beşillik səylərinin nəticəsi olaraq qəbul edilib. Bu prosesdə habelə vətəndaş cəmiyyətləri, informasiya təhlükəsizliyi mütəxəssisləri, akademiklər və özəl sektor nümayəndələri iştirak ediblər.

BMT-nin Baş katibi Antonio Quterreş konvensiyanın qəbul edilməsini alqışlayaraq konvensiyanın “son 20 ildə müzakirə edilən ilk beynəlxalq cinayət ədaləti müqaviləsi” olduğunu qeyd edib.

Baş katib bildirib ki, “yeni müqavilə təhlükəsiz kiberməkanın təşviqinə xidmət edəcək və bütün dövlətləri konvensiyaya qoşulmağa və onu müvafiq maraqlı tərəflərlə əməkdaşlıq şəklində həyata keçirməyə çağırır”.

Qeyd edək ki, Beynəlxalq Konvensiyanın hazırlanması üzrə “Ad Hoc” Komitənin bu il BMT-nin Nyu-York şəhərindəki Baş Qərargahında keçirilmiş yekun sessiyasında ölkəmizi Dövlət Təhlükəsizliyi Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Xarici İşlər Nazirliyinin əməkdaşlarından ibarət Azərbaycan nümayəndə heyəti təmsil edib.

Ötən müddət ərzində Azərbaycan nümayəndə heyəti informasiya və kommunikasiya texnologiyaları vasitəsilə törədilən cinayət əməllərinin kriminallaşdırılması, beynəlxalq hüquqi və texniki yardım öhdəlikləri, elektron sübutların mühafizəsi, toplanılması və təqdim olunmasına dair beynəlxalq əməkdaşlıqla bağlı prinsipial hesab edilən məsələlərə dair müvafiq təkliflər verib və komitə tərəfindən Azərbaycan tərəfinin təqdim etdiyi bütün təkliflər qəbul edilərək yekun konvensiya layihəsinin mətnində öz əksini tapıb. Kibercinayətkarlığa qarşı BMT Konvensiyası yeni əsrin konvensiyası hesab edilir.

Nəzərə çatdıraq ki, kibercinayətkarlığa qarşı mübarizədə bir sıra mühüm problemlər mövcuddur. Bu problemlər, həm dövlətlərarası əməkdaşlıq, həm də texnoloji inkişafın sürətinə paralel olaraq hüquq və təhlükəsizlik sahəsindəki boşluqların yaranmasından irəli gəlir. Kibercinayətkarlıq çox vaxt beynəlxalq səviyyədə baş verir və cinayətin törədildiyi ölkə ilə cinayətin təsir etdiyi ölkələr arasında hüquqi boşluqlar yaradır. Fərqli ölkələrdə hüquqi yanaşmalar, qanunlar və müvafiq standartlar fərqləndiyi üçün kibercinayətin təqibi, araşdırılması və sübutların təqdim edilməsi çətinləşir. Texnologiyanın sürətlə inkişaf etməsi isə kibercinayətkarların yeni metodlardan istifadə etməsinə səbəb olub. Yeni təhdidlər və kibercinayətkarların davamlı olaraq inkişaf edən strategiyaları ilə hüquq-mühafizə orqanlarının ayaqlaşması çətinləşir. Eyni zamanda kibertəhlükəsizlik infrastrukturları da hər zaman müasir texnologiya ilə əlaqədar təhdidlərlə mübarizə aparma səviyyəsində olmur. Hər bir dövlətin öz hüquqi sistemi və qanunları olduğundan, kibercinayətlərin təqibi və hüquqi məsuliyyətlər arasında tutarsızlıqlar yaranır. Bir çox dövlət kibercinayətləri ciddi cinayətlər olaraq qəbul etməyə və cəzalandırmağa başladığı halda, başqa ölkələr hələ də müvafiq qanunvericiliyi qəbul etməyib və bu da beynəlxalq əməkdaşlığı çətinləşdirir. Elektron sübutların əldə edilməsi və onların məhkəmələrdə qanuni şəkildə qəbul edilməsi çox vaxt çətin olur. Kibercinayətin izlərinin itirilməsi, məlumatların şifrələnməsi və yüksək texnologiyalı metodlarla cinayətkarların anonim olaraq fəaliyyət göstərməsi sübutların toplanmasını daha da mürəkkəbləşdirir. Ekspertlər qeyd edir ki, kibercinayətkarlığın qarşısının alınması üçün toplanan məlumatlar, o cümlədən şəxsi və maliyyə məlumatları, müvafiq qanunlarla qorunmalıdır. Dövlətlərin kibertəhlükəsizlik tədbirlərinin sərtləşdirilməsi zamanı şəxsi hüquq və azadlıqların pozulması məsələsi də gündəmə gəlir. Qlobal əməkdaşlıq tələb edən kibercinayətkarlığın qarşısının alınması məsələsində fərdi dövlətlərin özlərinə məxsus fərqli maraqları və təhlükəsizlik prioritetləri olur. Koordinasiya çatışmazlığı və beynəlxalq standartların tətbiqi prosesində qarşıya çıxan məsələlər effektiv mübarizə aparmağı çətinləşdirir. İnternet sərhədləri keçən və dünyada hər hansı bir regiondan asılı olmayan bir kiberməkandır. Bu sərhədsizlik kibercinayətkarlığa qarşı mübarizəni çətinləşdirir və dövlətlər üçün bir çox hüquqi suallar yaradır.

O da qeyd edilir ki, kibercinayətkarlıqla mübarizədə ixtisaslaşmış hüquq-mühafizə orqanları və mütəxəssislərin sayı hələ də azdır. Hüquq-mühafizə orqanlarının kibertəhlükəsizlik sahəsində olan bilikləri və bacarıqları da əksər hallarda yetərli olmur, çünki bu sahə sürətlə inkişaf edir. Kibercinayətkarlar müxtəlif təhdid növləri təqdim edirlər: maliyyə fırıldaqları, kiberhücumlar, identifikasiya oğurluqları, haker hücumları və sairə. Bu təhdidlərin çoxçeşidli olması, mübarizənin məqsədli və çoxsahəli şəkildə aparılmasını zəruri edir.

Bəs BMT-nin yeni konvensiyası nələri ehtiva edir, əhəmiyyəti nə dərəcədə vacibdir?

**BDU-nun Hüquq fakültəsinin Beynəlxalq ümumi hüquq kafedrasının professoru Əfsər Sadıqov mövzu ilə bağlı “Yeni Müsavat”a fikirlərini bölüşüb:** “Birləşmiş Millətlər Təşkilatı bir çox sahələrdə universal səviyyədə beynəlxalq cinayətkarlıqla mübarizədə əhəmiyyətli rol oynaması özünü göstərir. Bu sahədə kifayət qədər beynəlxalq müqavilə, norma və digər standartlar qəbul edilib. Bu gün də yeni bir konvensiyanın ərsəyə gətirilməsində, xüsusən də kibercinayətkarlıqla mübarizədə BMT-nin rolu yenə də özünü göstərdi. Bu gün dünya əhalisinin 67-70%-ə yaxını internet resurslarından sərbəst istifadə edə bilirlər. Bu internet resurslarından istifadə də nə qədər mütərəqqi istiqamətə malik olsa da, eyni zamanda müəyyən təhdidlər yaratmaqdadır. Məhz bu təhdidlərin qarşısının alınması üçün ayrı-ayrı dövlətlərin fərdi tədbirləri yetərli olmurdu. Bunların kompleks səviyyədə həlli üçün də universal səviyyədə, bu dövlətlərin birgə fəaliyyət göstərəcəyi bir standartın ortaya gəlməsi lazım idi. Bunu da BMT məclisi çərçivəsində qəbul olunan konvensiya ilə buna nail olmağa çalışacaq. Xüsusən də konvensiyada nəzərdə tutulan əsas məsələlərdən biri hakerlərin, daha sonra müxtəlif sahədəki kibercinayətkarların cinayətlərinə qarşı birgə əməkdaşlığı təşkil etmək, bu sahədə əməkdaşlığı həyata keçirmək üçün müəyyən o, yurisdiksiyanın uzlaşdırılması, elektron sübutların əldə olunması, qiymətləndirilməsi və kibercinayətkarların təqibi baxımından bu konvensiyaya əhəmiyyətli olacaq. Bu sahədə dövlətlərin daxili cinayət qanunvericiliyinin, digər normativ hüquqi aktların uzlaşdırılması baxımından əhəmiyyətlidir. O cümlədən kiber məkanında qurbanların hüquqlarının müdafiəsi, vurulmuş zərərin kompensasiyası, eləcə də restitusiyası, həmçinin sıradan çıxarılan kontentlərin bərpası istiqamətində əhəmiyyətli olacaq. Burada əldə olunmuş sübutların, yəni kimə qarşı cinayət törədilibsə onların yurisdiksiyasına ötürmək və orada məhkəmə orqanlarının təqibini təşkil etmək baxımdan da bu konvensiya əhəmiyyətli olacaq. Ayrı-ayrı dövlətlərin bu sahədəki fərdi fəaliyyətindəki problemlər qlobal əməkdaşlıqla bu problemin aradan qaldırılması istiqamətində olacaq. Konvensiya bu istiqamətdə bütün dövlətlər üçün vahid hüquqi məkanın formalaşmasında irəliyə doğru atılmış addımdır. Burada da müəyyən problemlər yenə də var, amma ümumi məsələ demək olar ki, bu istiqamətdə həll edilir”.

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 236 (8609) 27 dekabr 2024

# Paşinyan reytinqin dibində - seçki sonu ola bilər

## Özünə "xəstəlik kağızı" düzəldib, Rusiya səfərindən yayınan baş nazirlə bağlı ilginc açıqlamalar; **ekspert:** "Paşinyanı gərgin siyasi gələcək gözləyir"

**Yola salmaqda olduğumuz ilin son həftəsi Ermənistanın baş naziri Nikol Paşinyanın hoqqabazlıqları ilə yadda qaldı. Nikol Paşinyan dekabrın 23-də çıxışı zamanı bildirib ki, Qarabağın qaytarılması ilə bağlı Azərbaycanla danışıqların aparılması prosesinə hələ 1994-cü ildən, yəni müharibənin bitməsindən az sonra başlanılıb.**



Açıqlamanın ardınca Paşinyan Ermənistanın keçmiş prezidentlərini bu məsələ ilə bağlı debata dəvət edib. Rober Köçəryanın Paşinyana sərt reaksiyasının ardınca Ermənistanın eks-prezidenti Levon Ter-Petrosyan da Nikol Paşinyana sərt cavab verib. "Min illər boyu mübahisə predmeti olan erməni artsax sizin avantürizminiz ucbatından artıq mövcud olmadığı və xalqımızın diqqətini bu acı reallıqdan yayındırmaq üçün ümidsiz cəhdlərdən başqa bir şeyiniz qalmadığı halda mən sizinlə nə barədə mübahisə etməliyəm?", - Ter-Petrosyan bildirib.

Bəs Paşinyanı birdən-birə belə açıqlama verməyə vadar edən səbəblər hansılardır? Niyə erməni baş nazir il sonu belə bir bəyanat səsləndirib? Birincisi, son aylar aparılan araşdırmalar və keçirilən sorğular göstərir ki, baş nazirin reytinqi kifayət qədər aşağı düşüb. Öz reytinqini artırmaq, xalqın narazılığını parçalamaq üçün Nikol Paşinyan "əslində tək günahkar mən deyiləm, Ter-Petrosyan, Köçəryan və Sərkisyan da günahkardır" prizmasından yanaşaraq, üzərinə düşən yükü atmaq, məsuliyyətdən yayınmaq üçün belə bir addım atıb. İkincisi, 2026-cı il Ermənistanda növbəti seçkilər keçiriləcək və bu, hazırkı hakimiyyət üçün ölüm-dirim mübarizəsi sayılır. Eyni zamanda Paşinyanın 2025-ci ildə növbədənkənar seçkilərə gedəcəyi də danışılan mövzulardandır.

**Deputat Sahib Alıyev mövzumuzla bağlı olduqca diqqətçəkən məqamlara toxundu:** "Birincisi, Paşinyan bununla sadəcə cənab İlham Əliyevin torpaqlarımız işğal altında olanda dediyi fikri təkrarlayıb, burada yeni nəsə yoxdur. Xatırlayırsınızsa, o zaman cənab Prezident bildirirdi ki, Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti deyil və ola bilməz. Dövlət başçımızın, xatırlayırsınızsa, onlara bir çağırışı da vardı ki, deyin sahibiniz kimdir biz də onunla, ya da onlarla danışıqlar aparaq. Bu çağırışı edən cənab İlham Əliyev əlbəttə, hər kəsdən daha yaxşı bilirdi onların sahiblərinin kimliyini, Bu çağırışla, sadəcə, qarşı tərəfə onların da Qarabağdakı soydaşları kini danışıqların subyekti yox, obyekti olaraq çıxış etdiklərini, bu ləyaqətsizliyə son qoymağın isə yolunun açıq etirafdan keçdiyini başa salmaqdan, Azərbaycanla birgə vasitəçilərin iç üzünü açmağa dəvətdən ibarət idi". **S.Alıyev bir məsələyə də diqqət çəkdi:** "Paşinyan deyir ki, o, guya çox vətənpərvər olduğundan bu reallığı qəbul etmək istəməyib, yəni sələflərindən fərqli olaraq vasitəçilərin rəsmi İrəvan üçün cızdığı çərçivəyə uyğun olaraq danışıqları uzatmağa çalışmayıb, elə birbaşa "Qarabağ Ermənistandır", - deyib, bununla da savaş başlayıb. Əslində o, vətənpərvər yox, meydan adamı olduğundan Ermənistan üçün cızılan çərçivədən qırağa çıxaraq, öz oyununu oynamağa çalışdığını və bunun da acı nəticələrini daddığını demək istəyir. Yəni bildirmək istəyir ki, 2020-nin iyulunda Tovuzla sərhəddəki döyüşlərin səbəbkarının Ermənistan olduğunu Sergey Lavrov elə-belə dilə gətirməmiş və həmin ilin payızında Makron onu boş yerə qeyri-adekvat adlandırmamışdı. Beləliklə, o demək istəyir ki, Ermənistanın əvvəlki liderlər də onun kimi Qarabağın Azərbaycanın bir hissəsi olduğunu tanımağa hazır olublar, sadəcə, onlara belə bir tapşırıq verilmədiyindən bunun əksini deyiblər". **Deputatın sözlərinə görə, Ermənistanın keçmiş prezidentləri yaxşı anlayır ki, dildən pərgahlıqla yanaşı, həm də artıq əlində aparılan danışıqların bütün detalları olan Paşinyan dediklərini sübut edəcək, ona görə də debatdan çəkinirlər:** "Amma Paşinyan bir etiraf da etməli, bildirməlidir ki, Azərbaycanın Minsk Qrupunun buraxılması təşəbbüsünə qoşulmamaqla əslində indi o da sələflərinin yolu ilə gedir, onlardan geosiyasi alət kimi faydalananların tapşırığına əməl edir. Paşinyanın taleyinə gəldikdə, Ermənistandakı istənilən seçki siyasi yox, geosiyasi aktdır. Orada hansı böyük dövlətin kütlə üzərində təsiri güclü olacaqsa, seçkini də onun marioneti udacaq. Bu baxımdan Paşinyan hələlik digərlərindən daha şanslı görünür".

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri Tural İsmayılov hesab edir ki, Nikol Paşinyan Ermənistan ictimai rəyini məşğul etmək üçün növbəti dəfə müzakirə predmetləri yaratmaq istəyir:** "Ermənistanda yaxınlaşan seçkilər var, eyni zamanda 2025-ci il Ermənistan üçün böyük ehtimal yeni gərginliklərlə xarakterizə olunacaqdır. Nikol Paşinyan daxili ictimai-siyasi rəyi çaşdırmaq və diqqəti başqa məqamlara yönəltmək üçün yeni dartışma mövzuları yaratmağa çalışır. Əslində bu gün Ermənistanın baş nazirinin özündən əvvəlki Köçəryan, Sarkisyan, həmçinin Levon Ter-Petrosyanı debatlara çağırması onu göstərir ki, Ermənistanın daxilində həqiqətən də aparılan ictimai rəy sorğularının nəticələri Paşinyanı ciddi formada narahat edir. O, özünə yeni müzakirə platformaları yaradaraq gündəmi dəyişdirməyə çalışır. Özəlliklə, Yeni ildən sonra Srbazanın rəhbərliyi altındakı qondarma provokatorların Paşinyana qarşı yeni hərəkətlənmələri gözlənilir". **T.İsmayılovun sözlərinə görə, eyni zamanda Nikol Paşinyan onun əleyhinə yaradılan "xain" obrazını da aradan qaldırmağa çalışır:** "Əlində baş nazir kimi güc strukturlarını və müxalifəti sıradan çıxaran bütün təsisatları saxlayır. Belə bir məqamda bir çox üstünlüklər əldə edərək özündən əvvəlki qatillərin bir çoxunu debatlara dəvət edir. Bu gün Ermənistan müxalifətində təmsil olunan keçmiş Xocalı qatilləri nə qədər murdar, siyasi idbardırlarsa, Nikol Paşinyan hakimiyyəti də mahiyyət etibarilə onlardan fərqli deyil. Ortada isə heç bir siyasi kəsimə güvəni qalmayan, sahibsiz, yiyəsiz qalmış bir Ermənistan cəmiyyəti var. Paşinyanı gərgin bir siyasi gələcək gözləyir. Bundan isə qurtuluş yoxdur".

Bu arada, N.Paşinyanın Rusiyada keçirilən MDB sammitinə və Avrasiya İqtisadi İttifaqının toplantısına qatılmaması da günün əsas müzakirə mövzularındandır. Koronavirusa yoluxduğunu əsas gətirərək Rusiyaya getməyən Nikol Paşinyanın videobağlantı vasitəsilə Leninqrad vilayətində keçiriləcək AİI sammitində iştirak etməsi tələb olunsa da, erməni baş nazir "xəstəlik kağızı" düzəltməklə bundan boyun qaçırmağa çalışır. Belə bir durumda Rusiyanın Paşinyana hansı sürprizi olacaq, bu da maraqlıdır. Reytinqi dibə enən baş naziri batırmaq Kreml üçün an məsələsi ola bilər...

❑ E.PAŞASOY,
"Yeni Müsavat"



# Putin seçimini etdi

**Suriyada Bəşər Əsəd rejiminin devrilməsi və Rusiyanın buna biganə qalması prezident Vladimir Putin üçün Ukraynanın daha vacib olduğunu göstərir.**

Teleqraf.com xəbər verir ki, bu barədə "Foreign Affairs" yazır.

ABŞ nəşri bu qənaətə gəlib ki, Putin Ukrayna müharibəsində tam qələbə naminə hər şeyi, o cümlədən Yaxın Şərq ölkəsindəki uğurları qurban verməyə hazırdır: "Moskva vaxtilə Əsədə Suriyanın böyük hissəsi üzərində hərbi-siyasi nəzarəti bərpa etməkdə uğurla kömək edib, amma uzunmüddətli perspektivdə müxalifətin müqaviməti həlledici zərbə vura bilməyib. Həmçinin Rusiya Suriyada iqtisadi inkişafı dəstəkləyə bilmədi.

Ruslar Suriya ekspedisiyasına həmişə ehtiyatla və laqeyd baxıblar, çünki uzaq bir müsəlman ölkəsinə əsgər göndərmək ideyası Sovet İttifaqının Əfqanıstandakı müharibəsi ilə bağlı xatirələri canlandırırdı. İndi Əsəd rejiminin devrilməsindən sonra Putin Rusiyanın müttəfiqlərinin ondan Suriya ilə bağlı lazımi addımları atacağını gözləməsinə baxmayaraq, diqqətini Ukraynadakı müharibəyə yönəldə bilər".

**Nəşr qeyd edir ki, Suriyanın itirilməsi ilə Rusiya Ukraynadakı müharibədə payını artırıb:** "Putinin sxeminə görə, Ukrayna Qərb elitası ilə Rusiyanın rəhbərlik etdiyi yeni nizam arasında qlobal mübarizənin dönüş nöqtəsinə çevrilib. Ukrayna uduzanda Rusiya Gürcüstan və istədiyi başqa ölkələrin ərazilərini ələ keçirməyə və özünü "güclü himayədar" kimi yenidən bazara çıxaracağına ümid edir".



# İranlı molla bölgəni qarışdırdı

**İranlı molla Loğman Bədirqaranın çıxışı Suriyanın Homs vilayətindəki ələvi icmasını hiddətləndirib. Çıxışdan sonra başlayan etirazlar yatırılarkən, mollanın çıxışında bölgədə yandırılan bir türbə ilə bağlı iddiasının yalan olduğu üzə çıxıb.**

Teleqraf.com xəbər verir ki, bu barədə Türkiyənin "Yeni Şafak" qəzeti yazır.

İranlı mollaya cavab verən ələvi qeyri-hökumət təşkilatları məzhəb şüarları və təxribat xarakterli çıxışları qəbul etmədiklərini və hər kəsin təxribatlardan uzaq durmasının lazım olduğunu bildiriblər.

Ələvilərin birgə bəyanatında daxili sülhün qorunması və hər cür təxribata yol verilməməsi üçün xəbərdarlıq edilib. İcma Suriyanın yeni rəhbərliyini son hadisələrin gedişatını izləməyə çağırıb və Dəməşqdən məzhəbçi ifadələrin işlədilməsini cinayət hesab edən qərar verməsi və bölgədəki silahlı qruplaşmaların dərhal tərk-silah edilməsi istənilib.

YENİ MÜSAVAT
N 236 (8609) 27 dekabr 2024

# İnvestisiya layihələri ilə bağlı mühüm yenilik

## Proqrama daxil edilən investisiya layihələrinin icrasının monitorinqi və nəticələrinin qiymətləndirilməsi Nazirlər Kabinetinin təsdiq etdiyi qayda əsasında həyata keçirilir

**Azərbaycanda dövlət büdcəsinin ən böyük həcmli xərc maddəsi olan dövlət əsaslı investisiya qoyuluşu vəsaitlərinin istifadəsi uzun illərdir hesabatlılıq, şəffaflıq baxımından ciddi tənqidlərə məruz qalır. Ölkəyə neft pullarının axını başlandıqdan sonra bəzən büdcə xərclərinin yarısına bərabər olan bu xərc maddəsi üzrə ayrılan pulların taleyi bir qayda olaraq qaranlıq qalır. Nəhəng infrastruktur layihələrinin icrası zamanı layihələrin dəyərinin şişirdilməsi, müddətinin məqsədli şəkildə uzadılması halları geniş yayılmış təcrübələrdən hesab olunur. Bir çox hallarda isə məlum olur ki, yüz milyonlarla manat dəyərində layihələrə büdcədən vəsait layihənin texniki-iqtisadi əsaslandırması, təkmil smeta sənədləri hazırlanmadan ayrılıb.**

İndi dövlət əsaslı investisiya qoyuluşu maddəsi üzrə vəsait ayrılacaq layihələrin hazırlanması, seçimi sahəsində tamam fərqli qaydalar tətbiq olunacaq. Prezident İlham Əliyevin bir neçə gün əvvəl imzaladığı fərmanla təsdiqlənən "Dövlət İnvestisiya Proqramının tərtib və qiymətləndirilməsinin yeni qaydaları"na əsasən investisiya layihələri üzrə təkliflər sifarişçi təşkilatlar tərəfindən ölkənin ümumi sosial-iqtisadi inkişaf konsepsiyalarına, strategiyalarına və dövlət proqramlarına, habelə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi prioritetlərə (layihələrə) və sektorlar üzrə strateji planlara uyğun olaraq səmərəlilik və effektivlik prinsipləri əsasında tərtib ediləcək.

ya təkliflərinə əsasən, hər ortamüddətli dövr üçün dövlət büdcəsində dövlət investisiya xərcləri üçün tələb olunan vəsaitin həcmi barədə cari il martın 1-dək Maliyyə Nazirliyinə sorğu göndərir. Maliyyə Nazirliyi öz növbəsində hər ortamüddətli dövr üçün dövlət büdcəsində dövlət investisiya xərclərinin ilkin ortamüddətli göstəricilərini cari il martın 31-dək, dəqiqləşdirilmiş məbləğini isə iyulun 20-dək İqtisadiyyat Nazirliyinə təqdim edir.

Maliyyə Nazirliyinin təqdim etdiyi investisiya xərclərinin məbləğinə uyğun olaraq, İqtisadiyyat Nazirliyi keçid və yeni investisiya layihələri, habelə sifarişçi təşkilatların investisiya proqramları əsasında ortamüddətli dövr üçün proqramın müvafiq istiqamətlər üzrə ilkin la-

nəticələri nəzərə alınmaqla və Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən proqrama daxil edilmiş layihələr, o cümlədən müdafiə, təhlükəsizlik və hərbi təyinatlı investisiya layihələri də daxil olmaqla, növbəti ilin dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsünün layihəsini hazırlayır və təsdiq edilmək üçün hər il yanvarın 10-dək Prezidentə təqdim edir.



**Qaydaya əsasən, investisiya layihələri dəyərinə görə 3 qrupa ayrılır:**

*- kiçik investisiya layihələri - dəyəri 30,0 milyon manata qədər olan investisiya layihələri;*

*- orta investisiya layihələri - dəyəri 30,0 milyon manatdan 50,0 milyon manata qədər olan investisiya layihələri;*

*- iri investisiya layihələri - dəyəri 50,0 milyon manatdan çox olan investisiya layihələri.*

İnvestisiya layihələrinin qiymətləndirilməsi layihə konsepsiyası, ilkin texniki-iqtisadi əsaslandırma və texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması mərhələləri üzrə İqtisadiyyat Nazirliyi tərəfindən aparılır.

İqtisadiyyat Nazirliyi sifarişçi təşkilatların investisiyihəsini cari il aprelin 5-dək İqtisadi Şuraya, aprelin 15-dək Nazirlər Kabinetinə, müvafiq istiqamətlər üzrə dəqiqləşdirilmiş layihəsini dövlət büdcəsinə uyğunlaşdırmaq məqsədilə avqustun 1-dək Maliyyə Nazirliyinə, növbəti il üçün dövlət büdcəsinin layihəsinə dair rəyin hazırlanması məqsədilə sentyabrın 15-dək Hesablama Palatasına təqdim edir.

İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyi tərəfindən cari il dekabrın 25-dək dövlət investisiya proqramına daxil edilmiş və maliyyələşdirilməsi dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu xərclərindən həyata keçirilən layihələrin icra vəziyyətinə baxılır. İqtisadiyyat Nazirliyi hər il dekabrın 25-dək proqrama daxil edilmiş keçid investisiya layihələrinin icra vəziyyəti və yeni investisiya layihələrinin qiymətləndirilməsi

Dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsü təsdiq edildikdən sonra Maliyyə Nazirliyi həmin bölgüdə göstərilən investisiya layihələri üzrə nəzərdə tutulan vəsaitin ayrılmasını təmin edir və investisiya layihələrinin maliyyələşməsinə dair aylıq məlumatları növbəti ayın 5-dək İqtisadiyyat Nazirliyinə təqdim edir.

İqtisadiyyat Nazirliyi ölkənin investisiya siyasətinin əsas istiqamətləri və prioritetləri nəzərə almaqla investisiya layihələrinin reytinqini müəyyən edir və bunun əsasında prioritetləşdirilməsini həyata keçirir. Bu zaman ən yüksək reytinqli investisiya layihəsi ən yüksək prioritetli investisiya layihəsi hesab olunur.

Sonda investisiya layihələri İqtisadiyyat Nazirliyinin son nəzarət prosedurundan keçməlidir. Keçməyən layihələr dövlət əsaslı vəsait qoyuluşu proqramına daxil edilmir, onlar prioritetləşdirmə və reytinqin müəyyənləşdirilməsi prosedurunda yüksək reytinq alan digər investisiya layihələri ilə əvəz edilir.

Qaydalara görə, hər bir layihə üzrə cari il üçün təsdiq edilmiş xərcdən artıq malların alınmasına, işlərin və ya xidmətlərin yerinə yetirilməsinə yol verilmir.

Əsaslandırılmış səbəb olmadan kiçik investisiya layihələrinin 4 (dörd) ildən, orta investisiya layihələrinin 5 (beş) ildən artıq müddətdə icra olunmasına yol verilmir. Bununla əlaqədar, dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşundan (investisiya xərclərindən) müvafiq vəsaitin ayrılması təmin edilir və vəsaitin bölgüsü zamanı keçid investisiya layihələrinə üstünlük verilir.

İqtisadiyyat Nazirliyi proqrama daxil edilən investisiya layihələrinin icrasının monitorinqini həyata keçirir. Bu proses investisiya layihələrinin icrasına dair hesabatın monitorinqi və investisiya layihələrinin yerində monitorinqi şəklində həyata keçirilir.

Proqrama daxil edilən investisiya layihələrinin icrasının monitorinqi və nəticələrinin qiymətləndirilməsi Nazirlər Kabinetinin təsdiq etdiyi qayda əsasında həyata keçirilir. Proqrama daxil edilən investisiya layihələrinin icrasına nəzarət sifarişçi təşkilatlar tərəfindən həyata keçirilir. Sifarişçi təşkilatlar hər rüb üzrə, növbəti rübün ilk ayının 10-dək Nazirlər Kabinetinə, İqtisadiyyat Nazirliyinə, Maliyyə Nazirliyinə və Hesablama Palatasına bu Qaydaların 7.2-ci bəndində nəzərdə tutulan qaydalara uyğun olaraq investisiya layihələrinin icrasına dair dövri hesabatı təqdim edirlər.

İqtisadiyyat Nazirliyi isə il müddətində proqrama daxil edilən investisiya layihələrinin icrasının monitorinqinin nəticələri barədə icmal hesabat hazırlayaraq növbəti il martın 1-dək Nazirlər Kabinetinə və Hesablama Palatasına təqdim edir.

Prioritet orta və iri investisiya layihələrinin icrası tamamlandıqdan və istismar mərhələsinə keçdikdən sonra investisiya layihələri üzrə planlaşdırılmış məqsədlərə nail olunmasını müəyyənləşdirmək üçün İqtisadiyyat Nazirliyi tərəfindən müstəqil kənar qiymətləndirici cəlb edilməklə investisiya layihələrinin nəticələrinin yekun qiymətləndirilmə hesabatı hazırlanır və həmin hesabat növbəti investisiya layihələrinin hazırlanması və qiymətləndirilməsi zamanı nəzərə alınır.

Yeni qaydalar dövlət əsaslı investisiya qoyuluşu sahəsində nələri dəyişəcək? Hansı müsbət dəyişikliklər gözləmək olar? **İqtisadçı-ekspert Rəşad Həsənovun** "Yeni Müsavat"a dediyinə görə, Azərbaycan dövlət büdcəsi vəsaitləri hesabına icra olunan investisiya layihələri ilə bağlı qaydaların yenilənməsi zərurəti çoxdan yaranmışdı: "Bu qaydaların təkmilləşdirilməsi bir çağırış idi, onların yenilənməsi zərurətə çevrilmişdi. Çünki mövcud qaydalar çoxdan hazırlanmışdı, köhnə, əhatəsiz və aydın olmayan tələblər idi. Yeni qaydalar bu sahədə olan çatışmazlıqları demək olar ki, bütünlüklə aradan qaldırır, mexanizmi təkmilləşdirir və mərhələli şəkildə investisiya proqramlarının tərtibi, prioritet sahələrin müəyyənləşdirilməsi, layihələrin icrasına nəzarət və monitorinq mexanizmini daha geniş şəkildə ehtiva edir. Yeni qaydalarda dəqiqləşdirmələr çoxdur. Hətta layihələrin kateqoriyalaşdırılması da həyata keçirilib, fərqli məbləğdə olan layihələrə fərqli yanaşma qoyulub. Eyni zamanda prosesin mərhələləri dəqiq vaxt müddəti ilə konkretləşdirilib, layihələrin maliyyələşmə mənbələri qeyd olunub. Bundan əlavə, mövcud qanunvericilikdə büdcənin investisiya xərcləri ilə bağlı çatışmazlıqlar da aradan qaldırılıb".

**Ekspert bildirir ki, son illərdə büdcənin investisiya xərclərinin layihələr üzrə bölgüsü dövlət başçısının fərman və sərəncamlarına əsasən həyata keçirilib:** "İnvestisiya proqramına daxil edilən layihələr üzrə vəsait bölgüsü Prezidentin imzaladığı sənədlərlə reallaşır. Lakin qanunvericilikdə bu səlahiyyət Nazirlər Kabinetində qalırdı. Yeni qaydalara əsasən proqramın tərtibi, layihələrin ekspertizası, prioritetləşdirilməsi İqtisadiyyat Nazirliyi tərəfindən həyata keçirilir, yekun bölgü üçün sənədlər Prezidentə təqdim olunur və beləliklə də boşluq aradan qaldırılır. Düşünürəm ki, yeni qaydalar dövlət investisiya proqramının daha effektiv tərtib olunması, dövlət vəsaitlərindən daha səmərəli istifadə edilməsi və prosesdə şəffaflıqla bağlı çatışmazlığın aradan qaldırılması üçün hüquqi çərçivələr formalaşdırır. Lakin qaydaların mövcudluğu prosesin bir hissəsidir, əsas onun icrasıdır. Qaydalarda nəzərdə tutulan tələblərə nə qədər əməl olunduğunu bir təcrübədə görəcəyik. Əgər bu proses sənəddə tutulan formada və ardıcıllıqda effektiv həyata keçiriləcəksə, bəli, onda biz dövlət investisiya xərcləmələri sahəsində çox ciddi keyfiyyət dəyişikliyinə şahid olacağıq. Əgər qaydalar digər bir çox mühüm sənədlər kimi icra olunmayacaqsa, yaxud formal xarakter daşıyacaqsa, onda, əlbəttə, bu sahədə problemlər də davam edəcək".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

# Din və tolerantlıq

YENİ MÜSAVAT
N 236 (8609) 27 dekabr 2024

# Təhsildə din tədrisi yenidən müzakirədə

## Rəsul Mirhəşimli: "Dini biliklərin dövlətin nəzarəti ilə öyrədilməsi gəncləri radikal düşüncələrdən qoruya bilər"

**Bir neçə gün öncə Bakıda Din Xadimlərinin Forumu keçirildi. Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri də burada iştirak etdi. Dünyaya Azərbaycanın necə dini tolerantlıq və multikulturalizm nümunəsi olması ilə bağlı ismarışları ötürdülər. Forumda bir çox məsələlər müzakirə edildi, eyni zamanda təhsil sahəsində dinin rolu da müzakirə edildi.**



**Azərbaycan Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova** Din Xadimlərinin Forumunda panel müzakirəsi zamanı ölkədə din və təhsilin əlaqəsindən danışıb: "Hazırda ölkədə din və təhsil bir-birindən ayrılıb. Bu səbəbdən hər kəsin seçim azadlığı var".

O bildirib ki, eyni otaqda həm təcrübəli dini xadimlərinin, həm də pedaqoqların birgə çalışması uğurlu nəticəyə gətirib çıxara bilər.

Yaxın günlərdə elmi-praktiki konfransda çıxışı zamanı **elm və təhsil naziri Emin Əmrullayev** deyib ki, təhsil müəssisələrində dini təhsil adı altında şagird və tələbələrə dini mesajlar verilməsi yolverilməzdir: "Təhsil bir neçə pillədən ibarətdir və burada əsas məqsəd təhsilin burada özünü doğrulda bilməsidir. Valideynlər daim övladlarına dini təhsil səviyyəsi barədə nəzarət etməlidir. Çünki sinif otağında qapı bağlıdır və müəllim öz fənnini tədris edir. Amma biz bilmirik din adı altında uşaqlara nə aşılanır".

Nazir dini sahədə kadr hazırlığına xüsusi önəm verilməli olduğunu vurğulayıb.

**Araşdırmaçı jurnalist, dini mövzular üzrə mütəxəssis Rəsul Mirhəşimli** "Yeni Müsavat"a deyib ki, cəmiyyətdə dinin rolu çox böyükdür və bu rolu nəzərə alaraq dinin tədrisinə xüsusi önəm vermək lazımdır: "Çünki dinin tədrisi insanların həyatında düzgün istiqamət verilməsi, həmçinin cəmiyyətin sosial-iqtisadi inkişafına müsbət təsir göstərə bilər. İlk növbədə, dini biliklərin tədrisi cəmiyyətin tərbiyəsində mühüm rol oynayır.

Dini tədrisin başlanğıcı xüsusilə orta və ali məktəblərdə olmalıdır. Din öyrədilən zaman müqayisəli şəkildə tədris edilməli, insanlarda rasional düşüncə tərzinin aşılanmasına ciddi fikir verilməlidir. Hələ bir neçə il öncə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin ozamankı sədri də bu təkliflə çıxış etmişdi. Dini bilikləri Azərbaycan dövlətinin nəzarəti altında öyrədilməsi gəncləri radikal düşüncələrdən də qoruya bilər, dinin gerçək mahiyyətini öyrədilməsində yardımçı olar. Bu, gənclərin din haqqında düzgün və məlumatlı anlayış əldə etmələrini təmin edər və onları radikalizm kimi mənfi təsirlərdən qoruyar. Din həmçinin insanlara mənəvi dəyərləri, ədaləti, qayğıkeşliyi, başqalarına hörmət və sevgi kimi əxlaqi keyfiyyətləri aşılayır.

Dini biliklərin tədrisi sırasında onun müqayisəli şəkildə öyrədilməsi çox vacibdir. Bu yanaşma, tələbə və şagirdlərin müxtəlif dinlər və mədəniyyətlər haqqında məlumat əldə etmələrinə, həmçinin qarşılıqlı hörmətin və anlayışın formalaşmasına yardım edər".

**Rəsul Mirhəşimli əlavə edib ki, müxtəlif dinlər haqqında obyektiv məlumatlar verilməsi həm də dini təbliğatda radikal meyllərin qarşısının alınmasına yardımçı olar:** "Burada xüsusi diqqət xüsusən Quranın öyrətdiklərini əsas götürərək, dinin əsas prinsiplərinin öyrədilməsinə verilməlidir. Bununla da Qurani-Kərimin təbliğ etdiyi insanlıq, ədalət, mərhəmət və toleriantlıq kimi dəyərlər cəmiyyətdə müsbət əks-səda tapar.

Eyni zamanda dinin cəmiyyətdə birləşdirici rolunu vurğulamaq lazımdır. Din fərqli cəmiyyətlərdə bir çox müsbət xüsusiyyətləri birləşdirərək, insanları daha da yaxınlaşdırır. Müxtəlif mədəniyyətlərdə, dinlərdə və dillərdə olan insanlar arasında din həm birləşdirici əlaqələr yarada bilər. Bu yanaşma cəmiyyətin birliyini qorumağa və möhkəmləndirməyə yardım edir.

Din və mənəvi dəyərlər həm də cəmiyyətin müasir problemlərinə, xüsusən də sosial ədalətsizliyin aradan qaldırılması, insanlar arasında normal ünsiyyət bağının formalaşmasına yardımçı olur. Yetər ki, dini təbliğatı bu dinin gerçək mahiyyətini anlayanlar aparsın. Cəmiyyətdə dini düşüncəsi ilə həyat tərzini bütövləşdirə bilən din xadimləri var. Həmin adamların biliklərindən maksimum dərəcədə istifadə etmək lazımdır. Din adamları da davranışlarına, cəmiyyətdə münasibətlərinə xüsusi diqqət etməlidir. Çünki cəmiyyətin fərdləri bu insanların davranışları və dünyagörüşünə görə dinə qiymət verir. Başqa sözlə, din adamında görünən neqativ xüsusiyyətlər insanların dinə münasibətini də zədələyir.

Bir də onu qeyd etmək gərəklidir ki, gənclərə dinin yalnız bir inanc deyil, həm də həyati prinsipləri olduğu öyrədilməlidir. Dinin tədrisi yalnız fərdi mənəvi inkişaf üçün deyil, eyni zamanda cəmiyyətdə anlaşma və tərəqqi üçün də vacibdir. Dini biliklərin düzgün şəkildə və əhatəli tədrisi cəmiyyətin mənəvi inkişafına mühüm təsir göstərəcək, insanları doğru yola yönəldəcək və sosial harmoniya yaradacaq.

Ən mühüm məsələlərdən biri də cəmiyyətdə İslamofobiya meyllərinin qarşısını almaq üçün addımlar atmaq olmalıdır. İnanclı insanlara qarşı radikal, nifrət dolu və aşağılayıcı münasibət özünü daha çox sosial şəbəkələrdə göstərir. Dini bayramlarda, din tarixi baxımından önəmli olan günlərdə inanclı insanların dini əqidəsi hədəfə alınır. Bu münasibət də cəmiyyətdə normal münasibətləri zədələyir. Eyni zamanda qeyd etmək lazımdır ki, bu meyl və düşüncələr Azərbaycanın ali qanunvericilik aktlarına və insani davranış tərzinə də ziddir. İnsanların dini dünyagörüşü radikal düşüncədən uzaq sergilənirsə, bu, kimsənin ziyanına deyil. İnanmayan insanlar da insanlıq xatirinə ya bu əqidəyə saygı ilə yanaşmalı, bu saygını göstərə bilmirlərsə, heç olmazsa, susmalıdırlar".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ

# Din xadimlərinə təşəkkürnamələr təqdim olundu

## Şeyxülislam fərqlənən din xadimlərini təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb

**Ötən ay Bakıda keçirilən BMT-nin İqlim Dəyişməsi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP-29) zamanı təşkil olunan tədbirlərdə fəal iştirak edən QMİ Qazılar Şurasının bir qrup üzvünə və idarə əməkdaşlarına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzası ilə təşəkkürnamələr təqdim olunub.**

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə toplantıda çıxış edərək bildirib ki, son illərdə mötəbər tədbirlərə ev sahibliyi edən Azərbaycanda COP29-un yüksək səviyyədə keçirilməsi ölkəmizin dünyada artan nüfuzunun daha bir göstəricisidir. Şeyxülislam qeyd edib ki, din xadimləri də bu mühüm tədbirə öz töhfələrini verməyə çalışıb. COP29 çərçivəsində noyabrın 5-dən 7-dək Bakıda "Dünya dinləri yaşıl planet uğrunda" devizi ilə Dini Liderlərin Qlobal Sammitinin keçirildiyini xatırladan QMİ sədri bu əhəmiyyətli tədbirdə 50 ölkədən, 30 nüfuzlu beynəlxalq təşkilatdan 220-dən çox xarici qonağın iştirak etdiyini vurğulayıb. Allahşükür Paşazadə bildirib ki, ötən müddət ərzində Sammitin iştirakçılarından QMİ-yə minnətdarlıq məktubları daxil olur və həmin məktublarda təşkilatçılığın yüksək səviyyəsi barədə xoş sözlər qeyd edilir.

COP29 çərçivəsində tədbirlərdə fəallıq göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin imzası ilə təşəkkürnamə alanlar arasında QMİ Qazılar Şurası üzvlərinin və idarənin bir qrup əməkdaşının da olmasını ölkə rəhbərinin din-dövlət münasibətlərinin inkişafına, milli-mənəvi dəyərlərimizin qorunmasına diqqət və qayğısı kimi dəyərləndirən Şeyxülislam mükafat alanları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

QMİ sədrinin birinci müavini, müfti Salman Musayev, Sumqayıt-Abşeron-Xızı bölgəsi üzrə Qazı Rauf Sərdarov çıxış edərək ölkə başçısına minnətdarlıqlarını bildirib, din-dövlət münasibətlərinin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması və təbliği sayəsində var qüvvələri ilə çalışacaqlarını bildiriblər.

Yığıncağın sonunda təşəkkürnamə alan din xadimləri adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlıq məktubu göndərilməsi qərara alınıb.



YENİ MÜSAVAT
N 236 (8609) 27 dekabr 2024






# "Baltalı hücum işi"ndə sensasion ifadə

## Dövlət ittihamçısı mühafizəçiyə ittiham aktını elan etdi; Ağadadaş Ağayev isə...

**Binəqədi Rayon Məhkəməsində hakim Elçin Ağayevin sədrliyi ilə Xalq artisti Ağadadaş Ağayevlə insident yaşayan "MedEra" hospitalın mühafizəçisi Nurəddin Cəlilovun məhkəmə prosesi keçirilib.**

Prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib. Mühafizəçi Nurəddin Cəlilov ittiham üzrə özünü təqsirli bilməyib. Ağadadaş Ağayev prosesə qatılmayıb. Onun vəkili Asim Abbasov müvəkkillinin iştirak etməməsi səbəbi ilə prosesin təxirə salınmasını istəyib. Vəkil bildirib ki, Ağadadaş Ağayev səhhəti ilə bağlı prosesə qatıla bilməyib.

**İclasda şahid Nəzakət Paşayeva sərbəst ifadə verib. Deyib ki, mühafizəçi Nurəddin Cəlilovu tanıyır, onunla heç bir düşmənçiliyi, ədavəti yoxdur. O, hadisə ilə bağlı məhkəməyə bunları deyib:** "Həmin gün işdə idim, səs-küy gəldi. Baxdım ki, biri əlində balta gəlir. Fikir vermədim və işimin arxasınca getdim. Sonra səs-küy artdı. Ağadadaş Ağayev əlində balta gəldi. Mən baxanda şlaqbaumu keçmişdi. Mühafizəçi qapının qabağına çıxdı. Mənim əlimdə "şvabra" var idi. Bir tərəfi təmizlədikdən sonra digər tərəfə keçdim. Ayağımda zərbə hiss etdim, baltanın sapı ayağıma dəymişdi. Baltanı qıraq bir yerə qoydum ki, heç kəs götürüb hücum etməsin. Sonra mühafizəçi gəldi, burnu qanamışdı. Baltanı atanın tanınmış şəxs Ağadadaş Ağayev olduğunu görənlər onun yanına yığışdılar. Ağadadaş Ağayev balta ilə birinci dəfə gəldi, sonra qayıtdı. İkinci dəfə gələndə onu pəncərədən gördüm".

**Şahid Nəzakət Paşayeva qeyd edib ki, Ağadadaş Ağayev baltanı atandan sonra Nurəddin Cəlilov ona hücum edib:** "Mən baltanı alıb kənara qoydum ki, ikisindən biri baltanı götürər. Sonra gördüm ki, dalaşırlar, Ağadadaş yıxıldı. Ağadadaş Ağayev içəri gələndə söyüş söyürdü, deyirdi ki, hamınızı yığmışam içəri. Qorxunuzdan içəri keçmisiniz. Çox nalayiq söyüşlər söyürdü. İçəridə olanlarla birgə çox qorxu yaşadım".

**Digər şahid hospitalın baş tibb bacısı Nəzakət Zülfüqarlı oldu. Nəzakət Zülfüqarlı sərbəst ifadəsində bildirdi ki, hospitalda işdə olanda qışqırıq səsi eşidib:** "Xəstələr qorxusundan qışqırırdılar, onları sakitləşdirib geri göndərirdim. Ağadadaş Ağayev həyətdə çox pis söyüşlər söyürdü. Nurəddin də ona cavab verirdi. Ağadadaşla Nurəddini dalaşdığı anda gördüm. Nurəddin başını əyməsəydi, balta başına dəyəcəkdi. Nurəddinin əlində də simə oxşar nəsə var idi. Amma o simlə Ağadadaşa zərər verdiyini görməmişəm. Nurəddin onun qarşısına söyüşlərə görə çıxdı".

**Digər şahid hospitalın həkimi Ceyhun Hüseynov isə bildirib ki, səhər saat 7 radələrində xəstəxanaya işə gəlib və az sonra səs-küy eşidib:** "Haradasa 5 dəqiqə sonra səs-küy eşitdik. Biz ora yaxınlaşanda Ağadadaş Ağayev baltanı atdı. Onu gördüm".

**Həkim Ceyhun Hüseynov Ağadadaş Ağayevin insidentdən əvvəl xəstəxanaya gəldiyini, orada əsəbi şəkildə, yüksək səslə danışdığını da məhkəməyə bildirdi:** "Axşam radələri idi. Ağadadaş müəllim xəstəxanaya yaxınlaşdı. Sol qulağından travma almışdı. Xəstəxanaya gələndə əsəbi idi. Mənə dedi ki, məni tanıyırsan? Tanımadığımı dedim. Yüksək səslə yenə də sual etdi, dedi ki, sən məni tanımırsan? Onun dediklərinə qarşılıq vermədim. Ağrıkəsici verdik, qulağını tikdik, sonra yola saldıq getdi. İçkili olana oxşayırdı".

Yada salaq ki, məhkəmənin ilk iclasında zərərçəkmiş Nurəddin Cəlilovun vəkili vəsatətlə çıxış edərək təqsirləndirilən şəxsin əməlində daha ağır əməlin əlamətləri mövcud olduğunu deyib. Onun sözlərinə görə, əməldə 29,120.2.2- ci (qəsdən xuliqanlıq niyyəti adam öldürməyə cəhd) və 29, 120.2.4-cü (xüsusi amansızlıqla adam öldürməyə cəhd) maddələri ilə ittihamın əlamətləri var, baltanı zərərçəkmişə tərəf atması istintaq sənədləri ilə sübuta yetirilib: "Zərərçəkmiş şəxs bu barədə istintaq zamanı vəsatət verib. Amma vəsatət təmin edilməməklə zərərçəkmiş şəxsin hüququ pozulub. Biz işin ibtidai istintaqa qaytarılmasını istəyirik".

Vəkil Ağadadaş Ağayevin barəsində seçilmiş qətimkan tədbirinin həbs-qətimkan tədbiri ilə əvəz olunmasını istəsə də, dövlət ittihamçısı qətimkan tədbirinin dəyişdirilməsi üçün əsasların olmadığını demişdi. Hakim vəsatəti təmin etməyib.

Məlum insidentlə bağlı bir deyil, 2 cinayət işi istintaq olunub. Cinayət işlərindən birində Xalq artisti Ağadadaş Ağayev təqsirləndirilən şəxs, mühafizəçi Nurəddin Cəlilov zərərçəkmiş şəxs statusundadır. Cinayət dosyesi Binəqədi Rayon Məhkəməsinin hakimi Vüsal Tağıyevin sədrliyi ilə araşdırılır. Digər cinayət işində isə Nurəddin Cəlilov müttəhim, Ağadadaş Ağayev qarşı tərəfdir. İş üzrə bu il oktyabrın 31-nə təyin olunan məhkəmənin hazırlıq iclasına Ağadadaş Ağayev qatılmamışdı. Mühafizəçi Nurəddin Cəlilov hakim Elçin Ağayevin sədrliyi ilə mühakimə olunur.

Qeyd edək ki, Xalq artisti Ağadadaş Ağayevin müttəhim statusunda olduğu cinayət dosyesi üzrə tərəflər ibtidai istintaq zamanı 1 dəfə üzləşdiriliblər. Binəqədi Rayon Polis İdarəsinin İstintaq şöbəsində baş tutan və 1 saata yaxın davam edən üzləşdirmədə Ağadadaş Ağayev baltalı hücumu ilə bağlı inkarçı mövqe tutub, mühafizəçiyə atdığı baltanı "məişət əşyası" adlandırıb, baş verənlərdə məsuliyyəti Nurəddin Cəlilovun üstünə atmağa çalışıb.

Xatırladaq ki, iyulun 22-də Binəqədi rayonu ərazisində baş vermiş insidentdən sonra Ağadadaş Ağayev videomüraciət yayaraq hadisə ilə bağlı öz versiyasını təqdim edib. Bundan sonra onun balta ilə hücum etdiyi mühafizəçi Nurəddin Cəlilov Musavat TV-nin qonağı olub. Baş vermiş insidentin detallarını açıqlayan Nurəddin Cəlilov Ağadadaş Ağayevin baltalı hücumuna rəğmən, onunla barışa biləcəyini dilə gətirib.

Deyib ki, Ağadadaş Ağayevi yerə yıxandan sonra vurduğuna görə peşmandır və üzrxahlıq da edib. Birbaşa efirdən Ağadadaş Ağayevə ünvanlanan sülh təklifinə xalq artisti ötən müddət ərzində reaksiya verməyib. Ağadadaş Ağayevin vəkili Şəfa Camalzadə isə müvəkkilinin ona uzanan barışıq əlini sıxıb-sıxmayacağına aydınlıq gətirməyib. İnsidentlə bağlı yayılan videolardan aydın olur ki, Ağadadaş Ağayev "MedEra" hospitalın yerləşdiyi binanın mühafizə xidmətində çalışan Nurəddin Cəlilova bir dəfə deyil, 3 dəfə hücum edib.

**Nurəddin Cəlilov Musavat.com-un əməkdaşına deyib ki, Ağadadaş Ağayevlə insidentə səbəb xalq artistinin ona nalayiq ifadələr işlətməsi olub:** "Hadisə səhər saat 8-ə qalmış baş verib. Mən "MedEra" hospitala gələn xəstəyə aid avtomobili park edən vaxt yuxarıdan qışqırıq səsləri eşitdim. Ağadadaş Ağayev həmin vaxt öz balkonundan mənə qışqırırdı. Birinci ona fikir vermədim. Sonra o, yenə təkidlə mənə "bura gəl, qorxma, gəl bura" deyə səslənməyə davam etdi. Mən dedim ki, mənimləsiniz? Dedi ki, hə. Daha sonra mən ona cavab verdim ki, nə üçün qorxmalıyam? O, yenə təkidlə mənə dedi ki, gəl bura. Yenidən cavab verdim ki, mən hazırda iş başındayam və ərazidən uzaqlaşa bilmərəm. Daha sonra o, mənə üzünü tutaraq "ermənidən əmələ gələn, sənə demirəm bura gəl...", - deyə qışqırmağa başladı. Daha sonra o, yenə söyüşlərə davam etməyə başladı".

❑ **Elşən MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Fəzail Ağamalı və ailəsi ilə bağlı qərar

**Ana Vətən Partiyasının (AVP) sədri, sabiq deputat Fəzail Ağamalı, övladları - deputat Günay Ağamalı, Elçin Ağamalı, Yalçın Ağamalı və nəvələri Samirə Ağamalı, Kamran Ağamalı, Orxan Ağamalıya qarşı kommersiya iddiası üzrə məhkəmənin hazırlıq iclası keçirilib.**

Bakupost.az xəbər verir ki, dünən Bakı Kommersiya Məhkəməsində hakim Ülkər Həsənovanın sədrliyi ilə keçirilən prosesdə qərar qəbul olunub.

Məlumata görə, iddiaçı tərəf - "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti (QSC) ərizəsini geri götürüb. Məhkəmə iddia ərizəsinin geri qaytarılması barədə qərar çıxarıb.

Qeyd edək ki, "Aqrarkredit" QSC Fəzail Ağamalı və övladları ilə yanaşı, "Agricola" şirkəti və İmanova Suğra Sevindik qızını məhkəməyə verib.

Götürülmüş kreditin hissə-hissə ödənilməsi ilə bağlı razılıq əldə olunduğu bildirilib.

# Bu şəxsləri qida məhsullarının istehsalına cəlb edənlər cərimələnəcək

**Qida məhsullarının istehsalında yoluxucu xəstəliklərin daşıyıcısı olan şəxslərin cəld edilməsinə görə cərimələr müəyyən edilir.**

İqtisadiyyat.az xəbər verir ki, bu barədə məsələ İnzibati Xətalar Məcəlləsinə dəyişiklikdə əksini tapıb.

Məcəlləyə edilən dəyişikliyə əsasən, qida məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi və utilizasiyası proseslərinə ilkin və dövri tibbi müayinələrdən keçməmiş, yaxud müxtəlif yoluxucu xəstəliklərin daşıyıcıları olan və ya infeksion xəstəliklərə yoluxmuş əməkdaşların buraxılmasına görə fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

YENİ MÜSAVAT
N 236 (8609) 27 dekabr 2024

# Əzrayılı təyyarə bileti ilə “necə aldatmalı...”

## Təyyarənin hansı hissəsində uçmaq daha təhlükəsizdir?

**Azərbaycana məxsus Bakı-Qroznı reysi ilə uçan sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhərində qəza enişi etməsi və çoxsaylı insan tələfatının baş verməsi müxtəlif müzakirələrə yol açıb. Belə müzakirələrdən biri sərnişin təyyarəsində ən təhlükəsiz yerin hansı hissə olması ilə bağlıdır.**

Məsələn, bəziləri iddia edirlər ki, təyyarənin quyruq hissəsinə yaxın yerlər sərnişinlər üçün daha təhlükəsizdir. Belə deyilir ki, quyruq hissədəki yerlərdə uçmaq fövqəladə vəziyyətlərdə sağ qalma şanslarını artırır. Bu, çoxdan yayılan fikirdir və elə o səbəbdən də bir çox səyahətçi əvvəlcədən quyruq hissədəki yerlərə bilet bron etməyi üstün tutur.

Bəs bu fərziyyə həqiqətdirmi və doğrudanmı qəza vəziyyətlərində təyyarənin quyruq hissəsindəki yerlərdə uçanların sağ qalma ehtimalı çoxdur?

Modern.az saytı xəbər verir ki, **Qazaxıstandan olan aviasiya mütəxəssisi Abul Kekilbayev** bu məsələnin mahiyyətinə varmaq üçün danışıb.

Abul Kekilbayev mülki aviasiya üzrə ekspertdir. O, Riqa Aviasiya Elmləri İnstitutunu bitirib, burada nəqliyyat sistemlərinin idarə edilməsi üzrə magistr dərəcəsi alıb, həmçinin Qazaxıstandakı Nazarbayev Universitetini MBA dərəcəsi ilə başa vurub.

Abul Kekilbayevlə “Kazaeronaviqasiya”nın baş direktorunun müavini, Qazaxıstanın sənaye və infrastrukturun inkişafı nazirinin nəqliyyat üzrə müşaviri vəzifələrində çalışıb.



O, hazırda mülki aviasiyanın modernləşdirilməsi və inkişafı üzrə müstəqil məsləhətçidir. Abul Kekilbayev sərnişinlərin təhlükəsizliyinə hansı amillərin təsir etdiyini açıqlayıb.

Sərnişinlərin təhlükəsizliyindən danışan ekspert ekipaj hazırlığı, hava gəmilərinə texniki qulluq və beynəlxalq standartlara uyğunluğu əhatə edən bütöv tədbirlər sisteminin vacibliyini qeyd edib.

Abul Kekilbayevin sözlərinə görə, təyyarə qəzalarının ən çox baş verdiyi uçuş və eniş zamanı risklər hələ də mövcuddur.

Ekspertin fikrincə, təyyarənin quyruq hissəsi həqiqətən də fövqəladə hallarda daha təhlükəsiz yer hesab olunur.

“Təyyarənin qanadının arxasındakı quyruq hissəsi qəza zamanı məhv olmağa daha az həssasdır. Məsələn, adətən bir toqquşma zamanı təyyarənin burun hissəsi ilk zədə alan yer olur. "BekAir" təyyarəsinin qəzaya uğraması hadisəsini xatırlayırsınızsa, 13-cü sıra arxasında olan bütün sərnişinlər sağ qalmışdı, çünki əsas dağıntı aviagəminin ön hissəsində baş vermişdi”, - mütəxəssis bildirib.

**Bununla belə, o, konkret halda hər şeyin şəraitdən asılı olduğunu da qeyd edib:** "Təyyarə havada parçalanırsa, sərnişinlərin yeri artıq rol oynamır. Lakin sərt enişlərlə bağlı statistika quyruğa yaxın oturanların daha çox sağ qaldığını göstərir”.

Ekspert vurğulayıb ki, uçuşların təhlükəsizliyi bir çox amillərlə müəyyən edilir: təyyarənin texniki vəziyyəti, pilotların və mühəndis heyətinin ixtisası, eləcə də təyyarənin konstruksiya xüsusiyyətləri. O qeyd edib ki, sərnişinlərin təhlükəsizliyi təkcə oturacaq yerindən deyil, həm də davranışlarından asılıdır.

“Sərnişinlər təhlükəsizlik kəmərlərini bağlamalı və təlimatlara ciddi əməl etməlidirlər”, - deyə mütəxəssis söyləyib. Ekspertin fikrincə, sərnişinlərin xilas edilməsində qəza çıxışlarının da yeri var. Belə çıxışların sayı və yeri hər bir şəraitdə sürətli evakuasiyanı təmin etmək üçün hava gəmilərinin sertifikatlaşdırılması zamanı hesablanır.

Təyyarənin dizaynı qəza zamanı təsir qüvvələrinin paylanmasına da təsir göstərir. Məsələn, füzelajın dok nöqtələri yüksək riskli ərazilərə çevrilə bilər, lakin quyruq maksimum gərginlik zonalarından uzaq olduğu üçün nisbətən təhlükəsiz qalır.

**Bundan əlavə, o vurğulayıb ki, sərnişinlərin bütün salonda düzgün bölüşdürülməməsi təyyarənin mərkəzləşməsinə mənfi təsir göstərə bilər:** “Mərkəzləşmə vacibdir. Ekipaj nəzarəti itirmə riskinin qarşısını almaq üçün həmişə çəkinin bərabər paylanmasını təmin edir”.

Bəs Aktau yaxınlığında qəzaya uğrayan Azərbaycan təyyarənin bütün sərnişinləri arxada - quyruq hissədə toplaşsaydı, hamısı sağ qala bilərdimi?

**Abul Kekilbayev suala belə cavab verib:** “Əgər onların hamısı quyruq hissəsində və ya başqa bir hissədə toplanmış olsaydı, ekipaj onsuz da onları dağıdacaqdı. Çünki hamının bir hissəyə toplanması sərnişin düzülüşünün pozulması olacaqdı.

Bu səbəbdən bəzən sərnişinlər əvvəlcə arxadan, sonra öndən və ya əksinə, öndən, sonra arxadan buraxılırlar. Bütün bunlar sərnişin paylanmasının pozulmaması üçündür".

❑ “Yeni Müsavat”

# Avìafobìya nədìr?

## **Ekspert:** “Böyük fəlakətlərdə insanlar qurbanlara və onların ailələrinə qarşı güclü empatiya hiss edə bilirlər, bu da cəmiyyətdə depressiv vəziyyətlərin artmasına gətirib çıxarır”




**Azərbaycan Hava Yolları aviaşirkətinin (AZAL) Bakı-Qroznı reysini yerinə yetirən “Embraer 190" təyyarəsi Qazaxıstanın Aktau şəhərində qəza enişi etməsi səbəbi ilə təyyarədəki 67 nəfərdən 38-i həlak olub, 29-u isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib.**

Baş verən qəza səbəbi ilə ölkədə matəm günü elan edilib. Müxtəlif mədəni-kütləvi tədbirlərin keçirilməsi təxirə salınıb.

Modern.az qəza nəticəsində həyatını itirənlərin yaxınlarının və ümumilikdə cəmiyyətin psixoloji vəziyyətini təhlil etmək üçün Azərbaycan Psixologiya Akademiyasının rəhbəri, psixiatr, **psixoloq Ramil Hüseynli** ilə həmsöhbət olub.

**O bildirib ki, Aktauda olan təyyarə qəzası ölkə və cəmiyyət üçün çox ağır hadisədir**: “Belə hadisələrin çoxşaxəli psixoloji təsirləri olur. Bu psixoloji təsirləri, təsir göstərdikləri subyekt qruplarına görə 3 qrupa bölmək olar: qəzadan xilas olanlar, qəza zamanı həyatını itirənlərin yaxınları və bu hadisədən məlumatlı olan insanlar, cəmiyyət. Fəlakətdən xilas olmaq əvvəlcə görünən məmnunluq hissi yaratmağına baxmayaraq, vaxt keçdikcə psixoloji travma özünü göstərir. İlk dönəmlərdə bu özünü beyinə fəlakətlərlə bağlı intensiv fikirlərin gəlməsi şəklində olur. Gözlərinin önündə xatirələr canlanır, yuxularına fəlakət anının görüntüləri görünür, özlərini hadisənin ortasında hiss edirlər. Bir qədər oyanıq və gərgin olurlar. Sanki tikan üstündədirlər, tətikdə imiş kimi davranırlar. Diqqətləri tez-tez dağıla bilər. Belə şəxslər mənfi əhval-ruhiyyə içərisində ola bilirlər. Ani xoşbəxtliklərdən sonra belə, tezliklə əhval-ruhiyyələri çökür, qəmginləşirlər. Həmin fəlakəti xatırladan şeylərdən, işarələrdən uzaq qaçırlar. Uçuş etməkdən qorxurlar və nəticədə aviafobiya yaranmış olur. Xırda işarələr onlara həmin fəlakəti xatırladır. Bəzən belə şəxslər dissosiasiya durumu yaşayırlar, həmin fəlakət və ya sonrası ilə bağlı başına gələnlərin bir qismi yaddaşlarından silinir. Bu əlamətlərin davam etmə müddəti 1 aydan çox olarsa, onlara posttravmatik stress pozuntusu adlanan psixiatrik xəstəlik diaqnozu qoyulur. Bu da həmin şəxslərin həyatlarını çətinləşdirir, funksionallıqlarını zəiflədir”.

**Psixoloq onu da bildirib ki, fəlakətdən xilas olmuş şəxslərdə günahkarlıq hissləri də yarana bilir:** “Xilas olanlar çox vaxt digər qurbanlarla müqayisə edərək "Niyə mən, amma onlar yox?" kimi suallarla özlərini ittiham edirlər. Bu sindrom “günahkarlıq sindromu” kimi tanınır".

“Qəfil, gözlənilməz ölüm ailə üzvlərində daha dərin kədər hissi yarada bilər. Bu cür hadisələr sonrası həyatını itirən şəxslərin itkisi digər itkilərdən daha uzun müddətli olur. Biz bu halı "patoloji yas" adlandırırıq. İlk olaraq şok mərhələsi yaşanır. Bu zaman ani olaraq, fərd nəyin baş verdiyini anlamır. Daha sonra inkar mərhələsi başlanır. İnsanlar itki və ya travmanın reallığını qəbul etməkdə çətinlik çəkir. “Bu ola bilməz”, “Bu mənim başıma gəlmir” kimi düşüncələr ortaya çıxır. Bu mərhələ qoruyucu bir mexanizm olaraq ağrını azaldır və insana uyğunlaşmaq üçün vaxt qazandırır. Daha sonra qəzəb, anlaşma, depressiya və qəbul mərhələləri müşahidə olunur. İnsanlar reallığı qəbul etməyə başlayanda qəzəb hissi ilə qarşılaşa bilərlər. Qəzəb özünə, digər insanlara, hətta Tanrıya yönələ bilər. “Niyə məhz mənim başıma gəldi?”, “Bu haqsızlıqdır!” kimi ifadələr ortaya çıxa bilər. Anlaşma mərhələsində fərdlər vəziyyəti dəyişdirmək üçün razılaşmalar və ya dualar etməyə çalışır. “Əgər bu düzəlsə, mən hər şeyi dəyişəcəyəm” kimi düşüncələr müşahidə olunur. Bu mərhələ, ümumiyyətlə, ümidsizlik hissi ilə əlaqəlidir. Depressiya mərhələsində insanlar itkinin tam reallığını dərk etdikdə kədər, təklik və ümidsizlik hiss edə bilərlər. Bu mərhələ ümumilikdə sakit və düşüncəli bir dövr kimi xarakterizə olunur. “Hər şey mənasızdır”, “Onsuz həyat davam edə bilməz” kimi ifadələr ola bilər. Ən sonda qəbul mərhələsi başlayır. Bu zaman “bu baş verdi və mən davam etməliyəm” kimi ifadələr ortaya çıxa bilər. Eyni zamanda yasın başlanğıcında həyatını itirənlərin yaxınlarında da günahkarlıq hissləri formalaşır. Bu fəlakətlə bağlı özündə günah axtarır, əlaqələr qurur.

**Ramil Hüseynlinin sözlərinə görə, belə hadisələr cəmiyyətdə ümumi təhlükəsizlik hissini sarsıda bilər:** “Bu fəlakətin cəmiyyətə psixoloji təsiri heç də zəif deyil. Xüsusən də uçuşlardan qorxan insanlarda bu narahatlıq daha da artar. Qorxmayan insanlarda da aviafobiyanın yaranmasına səbəb olar. Cəmiyyətdə empatiya və kollektiv kədər formalaşır. Böyük fəlakətlərdə insanlar qurbanlara və onların ailələrinə qarşı güclü empatiya hiss edə bilirlər. Bu da cəmiyyətdə depressiv vəziyyətlərin artmasına gətirib çıxarır. Üstəlik, travmanın mediada təkrarı, faciənin mediada davamlı işıqlandırılması travmatik təsirləri geniş ictimaiyyətə yaya bilər”.

❑ “Yeni Müsavat”

YENİ MÜSAVAT
Son səhifə
N 236 (8609) 27 dekabr 2024

Dekabr

## Bunları bilirsinizmi?

- Qadınlar gözlərini kişilərdən iki dəfə çox qırpırlar.
- Dolları 293 üsulla xırdalamaq olar.
- Anadan olandan ölənə qədər gözlərimiz eyni ölçüdə qalır, qulaqlarımız və burnumuz isə həmişə böyüyür.
- Pişiklər 100-dən çox, itlər isə cəmi 10 səs çıxardırlar.
- Tədqiqatçı radiolokator borusunun yanından keçərkən cibində olan şokoladların əriməsindən sonra mikrodalğalı sobanı icad edib.
- Soğan doğradığınız zaman gözünüzün yaşarmasını istəmirsinizsə, saqqız çeynəyin.
- İnsanın saçı üç kilo ağırlıq qaldıra biləcək gücdədir.
- Ölüm anında toxunma və görmə hissindən sonra eşitmə bacarığı itirilir. Ürək dayandıqdan sonra insan beyni 2 dəqiqə boyunca səslər qəbul edilə bilir.
- Yuxusuzluq şikayəti ilə həkimə müraciət edən insanların IQ səviyyəsinin normadan yüksək olduğu müşahidə edilir.
- İnsanlar yuxuladığı zaman qoxu ala bilmirlər.
- Niaqara şəlaləsindən düşüb sağ qala bilən ilk insan Bobbi Liç evdə portağal qabığına basaraq yıxılmış və daxili qanaxma səbəbilə dünyasını dəyişmişdir.
- Dəniz atı dünyanın ən sədaqətli canlısıdır. Çünki həyat yoldaşı öldükdən qısa bir müddət sonra o da ölür.
- İnsan ildə ən azı 1460 ədəd yuxu görür.

# Qəhvənin gözlənilməz təhlükəsi



**Yatmazdan 12 saat əvvəl yüksək dozada kofein qəbul etmək belə gecə istirahətinin keyfiyyətini azalda bilər. Bunu Avstraliya Katolik Universitetinin alimləri müəyyən ediblər. Araşdırmanın nəticələri "Sleep" jurnalında dərc olunub.**

**Tədqiqatda 18-40 yaş arası 23 kişi iştirak edib. Bütün könüllülər mütəmadi olaraq orta dozada (gündə 300 mq-dan az) kofein istehlak ediblər. Təcrübənin bir hissəsi olaraq, subyektlərdən yatmazdan 12, 8 və 4 saat əvvəl (müxtəlif günlərdə) 100 və 400 mq kofein qəbul etmələri istənilib.**

Nəticələr göstərib ki, yüksək dozada kofein (xüsusən də 400 mq) hətta yatmazdan 12 saat əvvəl qəbul edilsə belə, yuxunu poza bilər. Yatmazdan dörd saat əvvəl qəbul edilən 100 mq kofein isə gecə istirahətinə praktiki olaraq heç bir təsir göstərməyib.

Alimlər qeyd ediblər ki, eksperiment iştirakçıları çox vaxt kofeinin yuxuya təsirini hiss etməyiblər, baxmayaraq ki, xüsusi yuxu monitorinq cihazının polisomnoqrafiya məlumatlarında onun keyfiyyətinin pisləşməsi müşahidə olunub.



## Uşaqlar gün ərzində nə qədər konfet yeyə bilər? - rusiyalı pediatrdan tövsiyə

**Rusiyalı pediatr və baş həkim İsmayıl Osmanov uşaqların biləcəkləri konfetin məqbul miqdarı barədə açıqlama verib. Məlumata görə, məhsulların tərkibindəki şəkərin miqdarı ilə əlaqədar olaraq həkim müəyyən edib ki, birinci sinif şagirdləri gündə 45 qramdan, daha böyük uşaqlar isə 67-dən çox konfet yeyə bilməz. "Kifayət qədər fiziki aktivlik şərtlərində, yeniyetməlik yaşına çatmamış uşaqlar gündə 1-2 konfet, yeniyetmə uşaqlar isə 2-3 konfet yeyə bilərlər", - deyə İsmayıl Osmanov qeyd edib.**

## Milyonlarla dollarlıq nadir "Ferrari" hərraca çıxarılacaq

**Parisdəki "RM Sotheby's" hərrac evi 1970-ci il istehsalı olan "Ferrari 512 M" trek avtomobilini satmağa çalışacaq.**

Oxu.Az xəbər verir ki, bu barədə auto.ru məlumat yayıb.

Məlumata görə, bu avtomobildən yalnız 25-i hazırlanıb, lakin bəzi dizayn detalları məhz bu nüsxəni unikal edir.

İdman avtomobili 550 at gücü, 5,0 litrlik V12 mühərriklə təchiz olunub.

Lotun sahibləri avtomobilə görə 9-12 milyon avro qazanmağı planlaşdırırlar.

# Hindistanda aqressiv meymunlar kəndi "işğal etdilər"



**Hindistanın Cammu və Kəşmir mübahisəli ərazisində makaka meymunları kəndi ələ keçiriblər və yerli sakinlərə hücum ediblər. Bu barədə "Daily Excelsior" nəşri məlumat verib. Aqressiv primatlar son illərdə makaka populyasiyasının əhəmiyyətli dərəcədə artdığı Caqanu kəndinin sakinlərinə hücum etməyə başlayıblar, lakin hakimiyyət buna nəzarət etmək üçün heç bir tədbir görməyib. İndi sakinlər şikayət edirlər ki, hər dəfə kimsə çölə çıxanda heyvanların hücumuna məruz qalma riski ilə üzləşir. İnsanlar həmçinin öz məhsullarından da ehtiyat edirlər, çünki makakalar məhsullara da hücum edirlər. Caqanu sakinləri hakimiyyətdən problemin həll olunmasını tələb edirlər.**



## Fransada maşinist intihar etdi: qatarların hərəkəti dayandırıldı

**Fransada maşinistin intiharı səbəbindən Paris-Lion xəttində dəmir yolu hərəkəti iflic olub. Dekabrın 24-ü axşam saatlarında ona yaxın qatarın hərəkətinin dayandırıldığı, sərnişinlərin ən azı altı saat nəqliyyatda qaldıqları bildirilir. Fransanın milli dəmir yolu şirkəti SNCF təsdiqləyib ki, maşinist qatar hərəkət edərkən intihar edib və buna görə də sistem qatarı avtomatik dayandırıb. Bir çox sərnişin Milad gecəsini istədikləri kimi keçirmədiklərinə görə məyus olublar. Fransa telekanalının məlumatına görə, insanlardan qatarlarda içməli suyun olmaması və SNCF-in heç bir məlumat verməməsi ilə bağlı şikayətlər olub.**

## Kofeinin "insanı ayıldan" miqdarı açıqlandı



**Kofein dünyanın ən populyar stimulyatorlarından biridir. Milyonlarla insan onu hər gün bu məqsədlə qəbul edir. Amma reaksiyanı yaxşılaşdıra biləcək kofein dozasının nə qədər olduğunu çox adam bilmir.**

İspaniyanın Kastilya-La Mança Universitetinin alimləri bunu araşdırıblar. Tədqiqatın nəticələri "European Journal of Nutrition" elmi jurnalında dərc edilib. Yeni tədqiqatda orta yaşı 22 olan 29 sağlam insan iştirak edib. İştirakçılar müxtəlif kofein dozaları - 3 mq/kq və 6 mq/kq, həmçinin kofeinsiz doza ilə kapsullar alaraq üç sınaqdan keçiblər. Dozaların ardıcıllığı (hər sınaqda hansı dozanın verilməsi) təsadüfi qaydada müəyyən edilib.

Qeyd edilir ki, kofein qana tez sorulur və qəbuldan bir neçə dəqiqə sonra orqanizmə təsir göstərir.

Nəticələr göstərib ki, 6 mq/kq kofein qəbulundan sonra reaksiya müddəti yaxşılaşıb, 3 mq/kq doza isə heç bir təsir göstərməyib. Bundan əlavə, kofeinin davamlı diqqət və yaddaş məhsuldarlığına heç bir təsiri aşkar edilməyib.

6 mq/kq doza qəbulundan sonra iştirakçılarda, həmçinin artmış nevrozluq və aktivlik müşahidə olunub (yəni onlar daha diqqətli, daha enerjili və daha aktiv olublar).

## Bu dərmanlar insanları kor edir

**Alimlər aşkar ediblər ki, adi dərmanlar orqanizm üçün ciddi təhlükə yaradır. Aparılan son elmi araşdırmada Harvard Universitetinin alimləri semaqlutid ehtiva edən arıqlamaq üçün istifadə olunan dərmanların ciddi yan təsirləri barədə xəbərdarlıq ediblər. "Ozempic" və "Vegovi" kimi dərmanlarda istifadə edilən bu tərkib hissəsi ani və geri dönməz görmə itkisinə səbəb ola biləcək arterial olmayan anterior işemik optik neyropatiyanın (NAION) inkişaf riskini artıra bilər.**

Tədqiqat Bostondakı həkimlərin bir həftə ərzində semaqlutid qəbul edən xəstələrdə üç görmə itkisi halını bildirməsindən sonra aparılıb. 16,827 xəstənin tibbi qeydlərinin təhlili, bu dərmanı qəbul etmək ilə NAION-un inkişafı arasında, xüsusən də tip 2 diabet və piylənmə olan insanlar arasında əhəmiyyətli bir əlaqə olduğunu göstərib.

Massaçusets Ümumi Xəstəxanasının neyro-oftalmoloqu Cozef Rizzo bu dərmanları təyin edərkən NAION-un potensial risklərini xəstələrlə müzakirə etməyin vacibliyini vurğulayıblar.

2017-ci ildə FDA tərəfindən şəkərli diabetin müalicəsi üçün təsdiq edilmiş Semaglutide arıqlamaq üçün də geniş istifadə olunur. O, qanda qlükoza səviyyəsini aşağı salmağa kömək edən incretin GLP-1-in hərəkətini təqlid edir. Bununla belə, Beynəlxalq Diabet Federasiyasına görə, diabet və piylənmə olan insanların çoxluğunu nəzərə alaraq, NAION riski milyonlarla insana təsir edə bilər.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.